

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Bu gün işğaldan azad olunmuş ərazilərimizdə sürətli bərpa işləri aparılır



4

SƏS
№ 102 (6785)
10 iyun 2023-cü il.
Qiyməti 60 qəpik

# Ölkə iqtisadiyyatının şaxələndirilməsini sürətləndirən layihə – Ələt Azad İqtisadi Zona




2

# Ermənistan regionun ekoloji mühiti üçün ciddi təhlükə mənbəyinə çevrilib



12

## Universitetlər tələbələri niyə təcrübəsiz yola salır?



16

## Ermənistan demoqrafik fəlakət qarşısında



5

## İki hamilə qadın gördüm...



15

## "Azərbaycanlı tələbənin həbsi molla rejiminin xislətini göstərir"



9

## İsrailin dənizdəki "Dəmir Qübbə"si



11

# Ölkə iqtisadiyyatının şaxələndirilməsini sürətləndirən layihə – Ələt Azad İqtisadi Zona



## *Prezident İlham Əliyev Ələt Azad İqtisadi Zonasının birinci mərhələsinin açılış mərasimində iştirak edib*



***Azərbaycanda həyata keçirilən iqtisadi islahatların əsas məqsədi ölkənin hərtərəfli inkişafına nail olmaqdır. Bunun üçün də qeyri-neft sektorunu inkişaf etdirmək vacibdir. İndiyədək bu istiqamətdə xeyli iş görülüb. Xüsusilə texnoparkların və sənaye zonalarının yaradılması sayəsində qeyri-neft sektorunda məhsul istehsalı ildən-ilə artmaqda davam edir.***








### ƏLƏT AZAD İQTİSADİ ZONASI XARİCİ SƏRMAYƏDARLAR ÜÇÜN MARAQLI İNVESTİSİYA MƏKANINA ÇEVRİLƏCƏK

Dünən Prezident İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ələt Azad İqtisadi Zonasının birinci mərhələsinin açılış mərasimində iştirak edib. Dövlətimizin başçısı Ələt Azad İqtisadi Zonasının Biznes Mərkəzində yaradılan şəraitlə tanış oldu.

Məlumat verildi ki, ümumi sahəsi 16 min kvadratmetr olan Biznes Mərkəzinin binası 3 funksional hissədən ibarətdir. Burada Ələt Azad İqtisadi Zonasının Səlahiyyətli Qurumunun ofisi, investorlara vahid pəncərə prinsipi ilə xidmət göstərəcək ofis, investorların idarəetmə qurumları üçün ofislər və təhkim olunan gömrük əməkdaşları üçün ofis fəaliyyət göstərəcək. Biznes Mərkəzində yüksəkkeyfiyyətli xidməti təmin edəcək müvafiq infrastruktur və maddi-texniki baza yaradılıb. Diqqətə çatdırıldı ki, növbəti inkişaf mərhələsində 138 hektar sahəni əhatə edən standart istehsal müəssisələri və logistika mərkəzləri üçün nəzərdə tutulmuş hissədə və eyni zamanda, 211 hektar sahəni əhatə edən ağır sənaye müəssisələri üçün hissədə layihələndirmə işləri davam edir. Növbəti inkişaf mərhələsinə aid 138 hektar sahədə torpaq işlərinə tezliklə başlanılması planlaşdırılır.

### ÖLKƏMİZDƏ QEYRİ-NEFT SEKTORUNUN İNKİŞAFINDA AÇILAN YENİ SƏHİFƏ - ƏLƏT AZAD İQTİSADİ ZONA

Bəli, Ələt Azad İqtisadi Zonasının yaradılması ölkəmizdə qeyri-neft sektorunun inkişafında açılan yeni səhifə kimi böyük əhəmiyyətə malikdir. Əminliklə deyə bilərik ki, investorların buraya marağı çox böyük olacaq. Xüsusi qanunlarla idarə ediləcəyinə görə Ələt Azad İqtisadi Zonası xarici sərmayədarlar üçün maraqlı investisiya məkanına çevriləcək. Ələt İqtisadi Zonası burada yaradılacaq sosial infrastruktur və xarici sərmayədarlar üçün təqdim ediləcək imkanlar baxımından digər ölkələrdəki oxşar zonalardan daha cəlbedici olacaq.

Və pandemiyanın dünyada yaratdığı böyük iqtisadi və maliyyə çətinliklərinə baxmayaraq 2021-ci il iyulun 1-də Prezident İlham Əliyevin təməlqoyma mərasimində iştirak etdiyi Ələt Azad İqtisadi Zonasının fəaliyyətə başlaması bu sahədə daha böyük dönüşə səbəb olacaq. Çünki indiyədək azad iqtisadi zonalar mövcud olduqları ölkələrdə iqtisadi inkişafa böyük töhfələr verib. Azərbaycanın da bu təcrübədən istifadə etməsi, şübhəsiz ki, ölkəmizə yeni uğurlar qazandıracaq.

Əlbəttə, bütün bunlar dövlət başçısının uğurlu iqtisadi strategiyası, həyata keçirilən iqtisadi islahatlar nəticəsində gerçəkləşib. Məhz cənab Prezidentin müvafiq fərmanı ilə təsdiq edilmiş Strateji Yol Xəritəsinin uğurla həyata keçirilməsi, cənab Prezidentin imzaladığı Sərəncama əsasən Qaradağ rayonunun Ələt qəsəbəsində yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının ərazisi daxil olmaqla, Azad Ticarət Zonası tipli xüsusi iqtisadi zonanın yaradılması ölkəmizin sürətlə inkişafına zəmin yaradır. Azad iqtisadi zonalar ehtiyatda olan məhsulların bir qisminin daxili bazara çıxarılmasına geniş imkan yaratmaqla, öz növbəsində idxaldan asılılığın aradan qaldırılması və yerli məhsulun bazara çıxarılması baxımından çox vacibdir. Sözügedən zona ümumilikdə Azərbaycan iqtisadiyyatının inkişafına böyük müsbət təsir göstərirəcək. Onu da vurğulamaq lazımdır ki, Ələt Azad İqtisadi Zonası xüsusi statusla, hasilatın pay bölgüsü statusuna bərabər statusla fəaliyyət göstərəcək. Bu statusun verilməsi xarici investisiyanın cəlb edilməsi baxımından vacibdir. Yeni güzəşt mexanizminin tətbiq olunması Ələt azad iqtisadi zonasına xarici investisiya cəlbini artıracaq. Burada artıq beynəlxalq hüquq normaları tətbiq ediləcək. Azərbaycanın öhdəliklərinin, eləcə də Ələt azad iqtisadi zonasında rezidentlərin öhdəliklərinin ayrıca qanunla müəyyənləşdirilməsi vacibdir. Təbii ki, bütün bunlar xarici investisiyanın cəlb edilməsinə imkan yaradacaq.

Bir sözlə, Ələt Azad İqtisadi Zonası ölkə iqtisadiyyatının şaxələndirilməsini sürətləndirəcək və neft sektorundan asılılığın azaldılmasına töhfə verməklə yanaşı, həmçinin potensial investorlar üçün cəlbedici məkan olacaq.

Beləliklə, Ələt Azad İqtisadi Zonasının fəaliyyətə başlaması Azərbaycana böyük iqtisadi dividendlər qazandırmaqla yanaşı, ölkəmizin regionda mövqelərini daha da gücləndirəcək, Şərq-Qərb və Şimal-Cənub tranzit-nəqliyyat dəhlizlərində mühüm rolu olan respublikamızın strateji əhəmiyyətini daha da artıracaq. Bu iqtisadi zonanın yaradılması dövlət gəlirlərinin və büdcəyə daxil olan vəsaitin artmasına, yeni investisiyaların cəlb edilməsinə şərait yaradacaq. Bundan başqa, bu layihənin icrası nəticəsində ölkəmizin milli iqtisadiyyatının dünya iqtisadiyyatı sisteminə inteqrasiyası sürətlənəcək.

Azərbaycan Prezidenti İlham Əliyevin 2021-ci il iyulun 1-də Prezident İlham Əliyevin təməlqoyma mərasimində iştirak etdiyi dediyi kimi: "Beləliklə, bir ildən sonra - gələn ilin iyul ayında zona investorları qəbul etməyə hazır olacaq. Əminəm, biz görəcəyik ki, bax, burada göstərilən mənzərə həyatda öz əksini tapacaq. Çünki bu günə qədər bütün təşəbbüslərimiz, bütün planlarımız həyatda öz əksini tapıb. Elə bir təşəbbüs olmayıb ki, o, reallığa çevrilməsin. Ən çətin layihələr, transmilli layihələr, çox çətin geosiyasi vəziyyətdə həyata keçirdiyimiz layihələr uğurla başa çatıb. Bunları sadalamağa ehtiyac yoxdur, hər kəs bilir söhbət nədən gedir. Ona görə, bu zonanın yaradılması, əminəm ki, uğurumuzun növbəti addımı olacaqdır".

***RƏFİQƏ KAMALQIZI***

# Azərbaycan - Türkiyə qardaşlığı əsrlər boyu yaşayacaq

## İstanbulda Ələt Azad İqtisadi Zonasının təqdimatı keçirilib

***Azərbaycan-Türkiyə əlaqələri dostluq, yüksək səviyyəli əməkdaşlıq əsasında qurulub. Bu dostluq əlaqələri bu gün dünənkindən daha dərin və ürəkaçandır. Təbii ki, sabah və sonrakı günlər, illər sonra da münasibətlər sıx olacaq. Ulu Öndər Heydər Əliyevin "Azərbaycan-Türkiyə bir millət, iki dövlətdir", Türk xalqının Böyük Öndəri Mustafa Kamal Atatürkün "Azərbaycanın kədəri - kədərimiz, sevinci - sevincimiz" tarixi kəlamları Azərbaycanla Türkiyə arasında münasibətləri Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən düzgün və məqsədyönlü siyasətin məntiqi nəticəsi olaraq inkişaf etdirilməkdədir.***

İqtisadi əlaqələrin inkişaf etdirilməsi hər iki ölkə əhalisinin firavan yaşayışının təminatına yeni imkanlar yaradır. Rəsmi məlumatlara istinad etməklə qeyd etmək olar ki, bu gün Türkiyə Azərbaycan iqtisadiyyatına ən çox investisiya qoyan ölkələrdəndir. Hazırda Türkiyədən Azərbaycana cəlb edilmiş birbaşa investisiyaların həcmi 13,3 milyard ABŞ dolları təşkil edir. Türk şirkətləri, əsasən, enerji, sənaye, telekommunikasiya, bank və sığorta, inşaat, nəqliyyat, qida, yüngül sənaye (tekstil), səhiyyə kimi sahələrdə fəaliyyət göstərir. Hər iki dövlətin birgə həyata keçirdiyi layihələr əsasında dünyamiqyaslı layihələri reallaşdırmaq mümkün olub. Bakı-Tbilisi-Ceyhan neft kəməri (BTC), Bakı-Tbilisi-Ərzurum qaz kəməri (BTƏ), Trans-Anadolu təbii qaz boru xətti (TANAP), Trans-Adriatik boru xətti (TAP) və Bakı-Tbilisi-Qars dəmir yolu xətti (BTQ) layihələri bu baxımdan ən ümdə nümunələrdir.







### Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində Azərbaycanla Türkiyənin birgə layihələri mühüm rol oynayır

Azərbaycanla Türkiyənin birgə təşəbbüsü ilə həyata keçirilən digər beynəlxalq əhəmiyyətli təşəbbüs Cənub Qaz Koridorunun mühüm komponentlərindən olan TANAP layihəsi Türkiyə və Avropa Birliyi ölkələrinin enerji təhlükəsizliyinin təmin edilməsi və təchizatının diversifikasiyası baxımından böyük önəm daşıyır. TANAP çərçivəsində Türkiyəyə ilk qaz nəqlinə 2018-ci ildə başlanmışdır. Əvvəldə illik 16 milyard kubmetr (bunun 6 milyard kubmetrini Türkiyə alır) təşkil edəcək qaz nəqlinin həcminin mərhələli surətdə əvvəlcə 24 milyard kubmetrə, sonra 31 milyard kubmetrə yüksəldilməsi mümkündür. 1850 kilometrlik TANAP xətti 2019-cu ilin sonlarından etibarən Cənub Qaz Koridorunun digər mühüm komponenti olan Trans-Adriatik Təbii Qaz Boru Xəttinə (TAP) bağlanaraq, Yunanıstan, Albaniya, Bolqarıstan və İtaliya üzərindən Avropaya çatdırılır.

### Azərbaycan da Türkiyə iqtisadiyyatına ən çox investisiya yatıran ölkələrdəndir

Hazırda Türkiyədə Azərbaycan sərmayəli 2000-ə yaxın şirkət fəaliyyət göstərir. 1995-2021-ci illər ərzində Azərbaycandan Türkiyəyə yatırılan birbaşa investisiyaların həcmi 20,3 milyard ABŞ dolları olmuşdur (17.1 milyard ABŞ dolları neft-kimya sektoruna, 3,2 milyard ABŞ dolları qeyri-neft sektoruna). Sadəcə, SOCAR-ın 2018-ci ilin sentyabr ayında 6,3 milyard dollar kapitalla Türkiyənin İzmir şəhərinin Əliağa rayonunda "Petkim" neft-kimya kompleksinin ərazisində inşasını tamamlayaraq istifadəyə verdiyi "Star" neft emalı zavodu Türkiyəyə birdəfəlik yatırılan ən böyük investisiya hesab olunur. Ümumilikdə, Türkiyədə investisiya qoyan azərbaycanlı iş adamları həm firma sayı, həm də investisiya həcmi baxımından Mərkəzi Asiya və Qafqaz ölkələri arasında ilk yerdədir. Türkiyə və Azərbaycan arasındakı ticarət davamlı artmaqdadır. Türkiyə Azərbaycanın həm idxalda, həm ixracda, həm də ikitərəfli dövriyyədə 2-ci əsas ticarət tərəfdaşıdır. Bu gün Azərbaycanın Türkiyə ilə ticarət dövriyyəsinin həcmi 4.661,85 mln. ABŞ dolları (12,06%), o cümlədən idxalın həcmi 1.843,71 mln. ABŞ dolları (18,00%), ixracın həcmi 2.818,14 mln. ABŞ dolları (8,48%) təşkil etmişdir. Azərbaycanda müxtəlif sahələrdə fəaliyyət göstərən 4797 Türkiyə şirkəti qeydiyyatdan keçmişdir. Türkiyə şirkətləri həmçinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində də aktiv şəkildə fəaliyyət göstərməkdədir. Hazırda həmin ərazilərdə müxtəlif istiqamətlər üzrə 107 layihə Türkiyə şirkətləri tərəfindən həyata keçirilməkdədir.

### "Ələt Azad İqtisadi Zonası"nın təqdimatı keçirilib

Bu günlər isə İstanbulda Türkiyə-Azərbaycan İşgüzar Şurasının ev sahibliyi ilə Azərbaycanda yaradılmış "Ələt Azad İqtisadi Zonası"nın təqdimatı keçirilib. Görüşdə Azərbaycan Respublikasının Türkiyədəki səfiri Rəşad Məmmədov, Türkiyə-Azərbaycan İş Şurasının sədri M.Kəmal Koloğlu və AFEZ-in İdarə Heyətinin sədri Valeh Ələskərov, eləcə də tikinti, logistika, turizm, Türkiyədə avtomobil, enerji, e-ticarət və Hüquq sahəsində fəaliyyət göstərən şirkətlərin nümayəndələri iştirak ediblər. İclasda çıxış edən Azərbaycan Respublikasının Türkiyədəki səfiri Rəşad Məmmədov uzun illərdir ki, bu layihənin müzakirə olunduğunu və nəhayət reallaşdığını bildirib.Türkiyə-Azərbaycan İş Şurasının sədri M.Kəmal Koloğlu son 5 ildə Azərbaycanın iş dünyası ilə inteqrasiya istiqamətində bəzi islahatların aparıldığını qeyd edib: "Neft və qazdan başqa sektorlara investisiyalar üçün yeni stimullar verilir. Yeri gəlmişkən, qəbul edilmiş ən mühüm tənzimləmələrdən biri də beynəlxalq PPP-dir, tik-işlət-təhvil qanunu parlament tərəfindən qəbul edilib və təsdiq edilib.Bir vacib məqamı qeyd etmək istərdim. Niyə Azərbaycan?Hər gün İstanbul, Ankara, İzmirdən iki, 13 qarşılıqlı reys həyata keçirilir.Üç, inkişaf etmiş nəqliyyat infrastrukturu var.15 min kilometrə yaxın hamar asfalt yollar, 8 hava limanı, ikisi beynəlxalq, Bakı-Tbilisi- Qars dəmir yolu bildiyiniz kimi, İngiltərə ilə Çini birləşdirir.Azərbaycan onun ortasındadır.

Bundan başqa, yeni tikinti bitə bilər, dəqiq bilmirəm, amma yeni Ak-Bakı Beynəlxalq Yük Limanı 11 milyon ton tutum. Çox qısa müddətdə istifadəyə veriləcəksə, Zəngəzur dəhlizi ilə Azərbaycan birbaşa Türkiyə ilə birləşdiriləcək. Buna görə də, bu andan etibarən üçüncü ölkəyə girmədən bir giriş-çıxış səfəri etmiş olacağıq. Axı o, həm də Azərbaycan İpək Yolunun əsas ölkəsidir. Daha iki vacib məqam var. Onlardan biri Qarabağdır, Azərbaycan Qarabağla birlikdə 16 min kvadratkilometrlik əvvəlki torpaqlarını qaytarıb. Bu torpaqlarda demək olar ki, heç nə, ermənilərdən bir daş parçası da qalmayıb. Bu, çox məhsuldar və çox böyük torpaqdır. Bu torpaq daxilində Azərbaycan sürətlə yollar, dəmir yolları, hava limanları tikir. 10-15 il perspektivdə 1 milyona yaxın insanın orada məskunlaşacağına qərar verilib. Onun infrastrukturu hazırlanır. Bildiyiniz kimi, bu infrastruktur hazırlanarkən ən vacib məsələlərdən biri də qoyulacaq investisiyalardır. Bu investisiyalara böyük miqdarda dəstək və stimullar verilir. Kəndlər və şəhərlər yenidən qurulduqca əhalinin məşğulluğunu təmin etmək üçün yeni iş yerləri, zavodlar açılmalıdır. Belarusu, Ukraynanı, Rusiyanı, Qazaxıstanı, Qırğızıstanı, Tacikistanı, Monqolustanı və hamısını hesablasaq, bu gün Azərbaycanın təxminən 250 milyon əhalisi və ticarət həcmi 1 trilyon 800 milyard dollardır".

AFİZ-in İdarə Heyətinin sədri Valeh Ələskərov isə çıxışında deyib: "Ölkə olaraq məqsədimiz Azərbaycan iqtisadiyyatını yaxın illərdə biliyə əsaslanan və beynəlxalq rəqabətədavamlı iqtisadiyyata çevirməkdir. Bu məqsədə çatmaq üçün etməli olduğumuz şey iqtisadiyyat, enerji, nəqliyyat, tranzit, logistika sahələrində qeyri-neft sektorlarının rolunu daha da gücləndirmək.İnfrastrukturunun inkişafını davam etdirməklə ən yüksək dünya standartlarına çatmaq.Biliyə əsaslanan, şaxələndirilmiş və ixracyönümlü dayanıqlı iqtisadiyyat yaratmaq. Yüksək əlavə dəyər təmin edən texnologiyalar. Qeyd olunmuş məqsədlərə doğru əzmlə irəliləyən ölkəmiz və Ələt Azad İqtisadi Zonası ölkəmizin baxışlarının reallığa çevrilməsi istiqamətində həyata keçirilən tədbirlərdə xüsusi yer tutur".

Bir sözlə, Azərbaycanla Türkiyə bütün sahələrdə bir-birinə dəstək verirlər. 30 il düşmən tapdağı altında olmuş torpaqlarımızın işğaldan azad edilməsində hərtərəfli dəstəyini əsirgəməyən Türkiyə dövləti, onun rəhbərliyi Qarabağda aparılan təmir, tikinti, bərpa işlərində də yaxından iştirak edir. Tam qətiyyətlə demək olar ki, bütün dünya üçün nümunəyə çevrilən Azərbaycan-Türkiyə qardaşlığı bundan sonra da, xüsusilə də, gələcək nəsillər tərəfindən də dönməzliyi və davamlığı təmin olunacaq.

**İ.ƏLİYEV**

# Bu gün işğaldan azad olunmuş ərazilərimizdə sürətli bərpa işləri aparılır

*Əlaqələndirmə Qərargahının Laçın şəhərində növbəti iclası keçirilib*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, iyunun 9-da Azərbaycan Respublikası Prezidenti Administrasiyasının, işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli məqsədilə yaradılmış Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyevin sədrliyi ilə Qərargahın Laçın şəhərində növbəti iclası keçirilib.

İclası giriş sözü ilə açan Samir Nuriyev 1993-cü ildə xalqın tələbi ilə hakimiyyətə qayıtmış Ümummilli Lider Heydər Əliyevin müdrik siyasəti və qətiyyətli iradəsi sayəsində dövlətimizin məhv olmaq təhlükəsindən xilas edildiyini, müstəqilliyimizin möhkəmləndirildiyini, ölkəmizin ardıcıl inkişaf yoluna qədəm qoyduğunu bildirib. Samir Nuriyev vurğulayıb ki, Ulu Öndər bütün qüvvəsini və xalqımızın potensialını vahid amal - torpaqlarımızın işğaldan azad olunması və məcburi köçkünlərin doğma yurdlarına qayıtmaları üçün səfərbər etdi. Ümummilli Liderin layiqli davamçısı Prezident İlham Əliyevin düşünülmüş və prinsipial siyasəti nəticəsində Azərbaycanın sürətli və hərtərəfli inkişafı təmin olundu, Ermənistanın 30 illik işğalçılıq siyasətinə son qoyuldu və ərazi bütövlüyümüz bərpa edildi. Bu gün işğaldan azad olunmuş ərazilərimizdə genişmiqyaslı yenidənqurma və bərpa işləri aparılır, artıq məcburi köçkünlər doğma yurdlarına qayıtmağa başlayıblar.



Əlaqələndirmə Qərargahının rəhbəri Azərbaycan Respublikası Prezidentinin 2023-cü ilin may ayı ərzində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına səfərlər edərək bir çox yaşayış məntəqələrinin təməllərini qoyduğunu, infrastruktur və digər obyektlərin təməlqoyma və açılış mərasimlərində iştirak etdiyini, yenidənqurma və tikinti işləri ilə yerlərdə tanış olduğunu və müvafiq tapşırıqlar verdiyini bildirib. Qeyd edilib ki, çoxşaxəli və irimiqyaslı layihələrin reallaşdırılması dövlətimizin başçısının işğaldan azad olunmuş ərazilərin dirçəldilməsi ilə bağlı müəyyən etdiyi sistemli, ardıcıl yol xəritəsinə və strateji xəttə uyğun şəkildə, sürətlə icra olunmaqdadır. Həyata keçirilən layihələr çərçivəsində işlərin miqyası genişləndiyinə görə, yerlərdə işin planlı və əlaqəli şəkildə aparılması, o cümlədən bütün aidiyyəti qurumların sıx əməkdaşlıq mühitində fəaliyyətinin təmin edilməsi, habelə vaxt və keyfiyyət amillərinin uzlaşdırılması məsələlərinə diqqətin artırılması zəruridir.

Sonra Azərbaycan Respublikası Prezidentinin işğaldan azad edilmiş ərazilərə səfərləri zamanı verdiyi tapşırıqların icrası istiqamətində görülən işlər ətrafında fikir mübadiləsi aparılıb. Həmçinin "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində 2023-cü il ərzində icrası davam etdirilən və həyata keçirilməsi nəzərdə tutulan işlərə dair məruzələr dinlənilib, müzakirələr aparılıb.

Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndələri iclasın gündəliyinə daxil olan məsələlərin yerlərdə əlaqələndirilməsi, müvafiq ərazilər üzrə görülən işlərin icra dinamikası və qarşıda duran vəzifələr barədə məlumat veriblər.

İclasda Azərbaycan Prezidenti tərəfindən Qərargah qarşında qoyulmuş vəzifələrin tam şəkildə icrası və müəyyən edilmiş strateji xəttə uyğun həlli məsələləri müzakirə olunub. Daha sonra Qərargahın üzvləri Laçın şəhərində Aqro və Sənaye Parkında görülən işlər, Heydər Əliyev küçəsinin yenidənqurma konsepti ilə tanış olub, 1 Dekabr küçəsində yaşayış məhəlləsinə baxış keçiriblər. Onlara Həkəri çayının sahilində salınan "Laçın bulvarı"nda aparılan işlərlə bağlı məlumat verilib. Qərargahın üzvləri Laçın rayonunun Zabux kəndinə səfər edərək, burada zəruri infrastrukturun yaradılması və kəndə qayıdacaq əhalinin rahat həyat şəraitinin təmin edilməsi istiqamətində aparılan genişmiqyaslı işlərlə tanış olublar. Səfərin yekununda Samir Nuriyev qarşıda duran məsələlərin vaxtında və yüksək keyfiyyətlə yerinə yetirilməsi üçün aidiyyəti orqanların rəhbərlərinə zəruri tapşırıqları çatdırıb.

# Ermənilərin ekoloji terroru: təbiətə təcavüz





Ətraf mühitin mühafizəsi, insanların sağlam təbii mühitdə yaşaması və təbii sərvətlərdən xalqımızın rifahının yaxşılaşdırılması məqsədi ilə istifadə edilməsi ölkəmizdə aparılan sosial-iqtisadi islahatların tərkib hissəsidir. Ölkə rəhbərliyinin ekoloji məsələlərə göstərdiyi diqqət sayəsində ətraf mühitin yaxşılaşdırılması istiqamətində son illərdir bir sıra layihələr həyata keçirilib, ekoloji problemlərin həllinə yönəlmiş tədbirlər görülüb. Ölkəmizin zəngin təbiətini qorumaq, bərpa etmək üçün yeni layihələr həyata keçirilir. Ekoloji tarazlığın qorunması, təbii ehtiyatların, o cümlədən, faydalı qazıntıların, su, torpaq, hava kimi əvəzsiz sərvətlərin, meşələrin və biomüxtəlifliyin mühafizəsi sahəsində mövcud olan dövlət proqramları çərçivəsində mövcud ekoloji problemlərin həlli istiqamətində müvafiq tədbirlər həyata keçirilib və bu gün də davam etdirilir. Belə ki, çirklənmiş torpaqların ekoloji vəziyyətinin sağlamlaşdırılması, neftlə çirklənmiş torpaqların, eləcə də müxtəlif maddələrlə çirklənmiş göl və gölməçələrin bərpası istiqamətində tədbirlər görülüb. İnsanların rahatlığı, firavanlığı, onların sosial rifahının yüksəlməsi məqsədi ilə ölkəmizdə davamlı olaraq tədbirlər həyata keçirilir.

### BEYNƏLXALQ SƏNƏDLƏRƏ ZİDD ƏMƏLLƏR

Təbiəti, florası və faunası ilə zəngin bir dövlət olan Azərbaycan ərazisinin çayı, dənizi, dağı və s. ölkəmizin zəngin və təkrarsız bir təbiətə malik olmasını göstərir. Ötən əsrin 90-cı illərində Ermənistanın işğalçılıq siyasətinin nəticəsində ölkəmizin təbətinə də ciddi ziyan dəymiş, həmin ərazilərdə ekoloji tarazlıq pozulmuşdur. Belə ki, Azərbaycanın 30 ilə yaxın işğal altında olmuş ərazilərində ətraf mühitə, bioloji müxtəlifliyə, meşələrə, yeraltı və yerüstü təbii ehtiyatlara böyük zərbə vurulmuşdur. Ekoloji terror aktları törədərək meşələri yandıraraq öz hərbi məqsədləri üçün bundan istifadə etmişdir. Milli parklar da daxil olmaqla qorunan təbiət əraziləri Ermənistan silahlı qüvvələri tərəfindən genişmiqyaslı yanğınlara səbəb olan raket atəşinə belə tutulmuşdur. Azərbaycanın "Qırmızı Kitabı"na və Beynəlxalq Təbiəti Mühafizə İttifaqının "Qırmızı Siyahısı"na daxil edilmiş nadir təbiət inciləri məhv edilib, flora və faunaya külli miqdarda ziyan dəyib. Ermənilərin törətdikləri ekoloji terror ekologiya və ətraf mühitlə bağlı beynəlxalq konvensiyaların, o cümlədən, "Ətraf mühitin dəyişdirilməsi üsullarının hərbi və ya hər hansı başqa düşmənsayağı istifadəsinin qadağan edilməsi" haqqında BMT konvensiyasının pozulması deməkdir.

### ENDEMİK BİOMÜXTƏLİFLİYƏ AĞIR ZƏRBƏ

Milli parklar da daxil olmaqla qorunan təbiət əraziləri Ermənistan silahlı qüvvələri tərəfindən genişmiqyaslı yanğınlara səbəb olan raket atəşinə tutulmuşdur. Şuşa şəhəri yaxınlığında meşə ərazilərindəki qiymətli ağaclar fosfor silahlarından istifadə nəticəsində yanmışdır. Nəticədə min illərdir formalaşan torpağın üst təbəqəsi tamamilə yanmışdır. Azərbaycan ərazilərində olan təbii sərvətlər də talan edilmiş, qızıl, civə, mis, qurğuşun, sink, kömür və s. daxil olmaqla 163 faydalı qazıntı yatağı, həmçinin meşə örtüyü, nadir ağaclar Ermənistan tərəfindən qanunsuz istismara məruz qalmışdır.

Ümumi sahəsi 8000 hektardan çox olan palıd, ardıc, fıstıq, vələs, şam, göyrüc və qozdan ibarət qiymətli və çoxillik sıx meşələrdən ibarət bənzərsiz bir ekosistemin məhv edilməsi endemik biomüxtəlifliyə ən ağır zərbə olmuşdur.

Erməni qəsbkarlar ərazilərimizi işğal altında saxladıqları dövrdə, Bəsitçay Dövlət Təbiət Qoruğunda da ekoloji terror törədiblər. Mənfur düşmən qoruğun meşəlik ərazisinin demək olar ki, yarısını məhv edib, ağacların kökünü, oduncağını yandırıblar. Bu gün işğaldan azad olunan ərazilərdə böyük abadlıq və quruculuq işlərinə başlanılıb. Eləcə də təbiətə yeni bir nəfəs gəlib. Yaşıllıqlar salınır, ağaclar əkilir, ekoloji mühit təmizlənir. Xatırladaq ki, Bəsitçay Dövlət Təbiət Qoruğu nadir Şərq çinarının qorunub saxlanılması məqsədilə Azərbaycan SSR Nazirlər Sovetinin 4 iyul 1974-cü il tarixli qərarı ilə 107 hektar ərazidə yaradılıb. Qoruq Zəngilan rayonunda Kiçik Qafqaz dağlarının cənubi-şərq hissəsinin Bəsitçay ətrafı boyunca ərazini əhatə edir. Çinarlıq qoruq ərazisinin 93,5%-ni təşkil edir. Qoruq ərazisinin landşaft kompleksini, xüsusilə nadir təbii çinar meşəliyini qorumaq məqsədilə təşkil edilib. Dünyada çinarın 7 növü var ki, Azərbaycanda isə onun yalnız bir növü - şərq çinarı inkişaf edir. Şərq çinarının çoxsahəli əhəmiyyətini, dünyada az yayılmasını, nadir bitki olmasını və son əsrlərdə xeyli azalmasını nəzərə alaraq, onun adı Azərbaycanın "Qırmızı Kitabı"na yazılmışdır. Mənbələrdə qeyd edilir ki, Bəsitçay dövlət təbiət qoruğunun 100 hektarını çinar meşələri tutur. Qoruqdakı çinar ağaclarının orta yaşı 165 il, orta hündürlüyü 35 m, orta diametri isə 1 m-dir. Bəsitçay dövlət təbiət qoruğu 27 il Ermənistan ordusunun işğalı altında olub və qoruq məhv edilmişdir. Bəsitçayın əsas təbiət kompleksi sayılan 200 illik tarixə malik çinar ağacları qəddarcasına kökündən çıxarılaraq məişətdə istifadə edilib. Bu, erməni vandalizminin növbəti əməlləridir.

**Zümrüd BAYRAMOVA**

**“Heydər Əliyev İli” çərçivəsində iyunun 9-da Yeni Azərbaycan Partiyası (YAP) Veteranlar Şurasının üzvlərinin Quba rayonunda gənclərlə görüşü keçirilib.**

# “Ulu Öndərimizin həyat və fəaliyyəti gənclərimiz üçün nümunədir”

## *YAP Veteranlar Şurasının üzvlərinin gənclərlə növbəti görüşü keçirilib*

Quba rayon Heydər Əliyev Mərkəzində təşkil olunan tədbirdə YAP-ın Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən və Xızı rayon təşkilatlarının üzvü olan fəal gənclər iştirak ediblər.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsi ziyarət olunub, önünə gül dəstələri düzülüb, Ulu Öndərin əziz xatirəsinə ehtiram olunub.

Tədbirdə Dövlət Himni səsləndirilib. Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın işğaldan azad edilməsi uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri giriş sözü ilə açan YAP Quba rayon təşkilatının sədri Fidan Hüseynova 2023-cü ilin ölkəmizdə “Heydər Əliyev İli” elan olunması ilə əlaqədar silsilə tədbirlərin keçirildiyini bildirib. O qeyd edib ki, Heydər Əliyev fenomeninin dövlətçilik tariximizdə müstəsna rolunun gənclər tərəfindən hərtərəfli öyrənilməsi çox önəmlidir: “Ulu öndər Heydər Əliyev bütün həyatını Azərbaycanın inkişafına həsr edib və Onun zəngin irsi bugünkü uğurlarımızı şərtləndirir. Azərbaycan Prezidenti İlham Əliyev Ulu Öndərin müəyyənləşdirdiyi siyasəti uğurla davam etdirərək müstəqil ölkəmizi daha da gücləndirib, beynəlxalq müstəvidə nüfuzlu dövlətə çevirib”.

Sonra çıxış edən YAP Veteranlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Arif Rəhimzadə gənclərə bütün həyatını xalqının xoşbəxt gələcəyinə həsr etmiş Ulu Öndərin Vətən və xalq qarşısındakı misilsiz xidmətlərindən danışıb. Vurğulayıb ki, Azərbaycanda müstəqil dövlət təsisatlarının qurulması, beynəlxalq normalara söykənən demokratik, hüquqi dövlətin yaranması, milli, mənəvi və əxlaqi dəyərlərimizin











qorunması, bu dəyərlərin ümumbəşəri ideyalarla daha da zənginləşdirilməsi məhz Heydər Əliyevin xidmətləridir.

Arif Rəhimzadə qeyd edib ki, 1990-cı illərin əvvəlində Azərbaycanın məhv olmaq təhlükəsi ilə üz-üzə qaldığını görən 91 nəfər ziyalı Heydər Əliyevə müraciət edərək Yeni Azərbaycan Partiyasının yaradılmasını və ona rəhbərlik etməsini təklif etdi: “Çünki xalqın ümidi məhz Heydər Əliyevə idi. Ulu Öndərin cavabı müsbət oldu, 1992-ci ilin noyabr ayında Yeni Azərbaycan Partiyası yaradıldı, 1993-cü ilin iyun ayında isə Ümummilli Lider hakimiyyətə qayıdaraq Azərbaycanı xilas etdi. Heydər Əliyevin yaratdığı müstəqil Azərbaycanı Prezident İlham Əliyev dünyada güclü və nüfuzlu dövlətə çevirdi”.

YAP Veteranlar Şurasının üzvü Misir Mərdanov isə bildirib ki, gənclərlə görüşün keçirilməsində məqsəd dahi şəxsiyyət Heydər Əliyevin əbədiyaşar ideyalarının gənclərə aşılanmasıdır. Çünki Azərbaycanın müasir tarixi, ölkəmizin inkişafı bilavasitə Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər hakimiyyətdə olduğu bütün dövrlərdə respublikamız və xalqımız üçün müstəsna xidmətlər göstərib.

Misir Mərdanov diqqətə çatdırıb ki, ölkəmizdə gənclər siyasətinin əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub və bu siyasəti Prezident İlham Əliyev uğurla davam etdirir. Gənclər Ümummilli Liderin müəyyənləşdirdiyi yolla getməlidir: “Çünki bu yolun alternativi yoxdur. Ulu Öndərimizin həyat və fəaliyyəti gənclərimiz üçün nümunədir”. Daha sonra gənclərin çoxsaylı sualları cavablandırılıb.

# Ermənistan demoqrafik fəlakət qarşısında

## *Ölkədə adam tapılmır (?)*

***2020-ci il Ermənistan üçün fəlakətli il oldu və bu fəlakət, əsasən, özünü ölkənin demoqrafik situasiyasına təsir etdi. Ekspertlər hesab edirlər ki, 2020-ci il olayları multiplikativ effekt daşıyır və həmin effekt uzunmüddətli perspektivdə özünü göstərəcək. Misal üçün, erməni tarixçisi və demokqafiya üzrə ekspert Mikael Malxasyana görə ölkənin demoqrafik göstəriciləri, xüsusilə, son illərdə narahatlıq yaratmağa başladıb.***



### 44 günlük müharibə Ermənistana hansı fəsadları yaşadıb?

Belə ki, situasiya epidemiya fonundakı 44 günlük müharibədə daha da pisləşib. Məhz bu kontekstdə 2020-2021-ci illər ən ağır dövr kimi göstərilir. Malxasyan əmindir ki, bu baxımdan, 44 günlük müharibə özünün ağrılı fəsadlarını bundan sonrakı uzun illərdə göstərməyə davam edəcək. Lakin bu da son deyil...

Mikael Malxasyan: “Müharibədə həlak olanların çoxu reproduktiv yaşlı kişilər olublar. Bu fakt uzunmüddətli perspektivdə qadın və kişi əhalisi arasında disbalans yaradacaq, eyni zamanda, nikah saylarına, habelə doğumlara neqativ təsirlərini göstərəcək”

Erməni eksperti hesab edir ki, ağır demoqrafik vəziyyətə daha bir səbəb boşanma tendensiyasının sürətlə artmasıdır. Məsələ ondadır ki, 2020-2021-ci illərlə müqayisədə 2022-ci ilin boşanmaları 40,14%-ə yüksəlib. Malxasyan əhalinin yaşlaşması faktorunu da demoqrafik fəsadlara gətirib-çıxardığını bildirib. Belə ki, hələ 2020-ci ilin müharibəsinə qədər əhalinin 20%-ini 0-14 yaşlı, 67,5%-ni 15-64 , 12%-ni 65 yaş və yuxarı vətəndaşlar əhatə edirdi.

### Ermənistanın aşağı doğum dövrü

“Müharibədə həlak olanların çoxu reproduktiv yaşlı kişilər olublar. Bu fakt uzunmüddətli perspektivdə qadın və kişi əhalisi arasında disbalans yaradacaq, eyni zamanda nikah saylarına, habelə doğumlara neqativ təsirlərini göstərəcək”, - deyən ekspert əlavə edib ki, 44 günlük müharibədə 2000-2002-ci ildə anadan olan oğlan uşaqları həlak olublar. Bu dövr isə Ermənistanda aşağı doğum dövrü kimi qeyd edilib. O əmindir ki, baş verən hadisələr səbəbindən yaranmış demoqrafik quyu gələcəkdə ciddi problemlərə gətirib-çıxaracaq. O cümlədən, ölkədə hazırda da müxtəlif sahələr üzrə insanlar çatışmır. 2023-cü ilin ilk rübündə isə Ermənistanı minlərlə insanlar tərk edib.

***Afət Tahirqızı***

# Şəxsi ambisiyalarının əsirinə çevrilmiş avantürist



***“İnsanların adı çəkiləndə ilk olaraq həyatda tutduqları mövqe, milli kimliyinə, mənsub olduğu dövlətinə və xalqına münasibəti əsas götürülür. Tofiq Yaqublu adı səslənərkən ağlımıza əvvəlcə milli dövlətçiliyə münasibəti mənfi olan xain bir obraz gəlir. Onun düşüncəsi XX əsrin 90-cı illərində qalmış küçə təfəkkürünə xasdır”.***

Bu fikirləri YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev söyləyib.

O qeyd edib ki, bu gün sosial şəbəkələrdə absurd çıxışları ilə Azərbaycan dövlətinə və Yeni Azərbaycan Partiyasına qarşı “hücuma keçən” Tofiq Yaqublu şəxsi ambisiyalarının əsirinə çevrilib: “Bu şəxsin ermənipərəst xislətə malik olması və xarici donorlardan aldığı qrantlar müqabilində xəyanətkar mövqeyini açıq-aşkar, qabarıq şəkildə ortaya qoyması onda Vətənə sevgi, xalqa sayğı kimi ülvi hisslərin olmadığını göstərir. Digər tərəfdən, Tofiq Yaqublunun Zəngəzur dəhlizi ideyasını “Azərbaycan dövlətinin avantürası” adlandırması, milli məsələ olan tarixi torpaqlarımıza Qayıdışımıza kölgə salmaq istəyi ikrah hissi doğurur. Ona görə də Tofiq Yaqublu kimi satqın, xain və antimilli ünsürlərin fikirlərini heç kim ciddi qarşılamır, əksinə, xalq bəlalərini və onların çirkin “ideya”larını qətiyyətlə rədd edir”.

TƏRS BAXIŞ

# Evlər təmirə, kitablar zibilliyə...

***Müasir dövrümüzün ürəkağrıdan bəlalarından biri də kitab məsələsidir. Elə ki, internet həyatımıza daxil oldu, kompüter, smartfon telefonlar meydana gəldi, illərimizi verdiyimiz kitablardan yavaş-yavaş uzaqlaşmağa başladıq. Kitablar kitabxanalarda rəflərdə oxucularının yolunu gözlədi, evlərimizdəki kitab rəflərini isə toz basdı. Biz kitabları internet aləminə satdıq, qurban verdik. Hansı ki, uşaqlıqdan gəncliyə, yetkinlikdən qocalığa kitablar hər zaman yol yoldaşımız olmuşdu. Bizi onlar tərbiyə etmişdi, doğru yolu göstərmişdi.***



İdealımız olmuşdu. Həyatda mübarizəni, mücadiləni öyrətmişdi bizə. Həm gündüz, həm gecələr dostumuz, rəfiqəmiz olmuşdu. Səhifələrinin özünəməxsus ətri indi də burnumuza gəlir. Bəzən əlimizə aldığımız kitablarda işarə üçün qatladığımız vərəqlərdə həmin qatların da olduğu kimi qaldığını görə bilirik.

Hələ göz yaşlarımızı demirəm. Kitablar illərlə bizi ağladıb. Qəhrəmanlarımızın taleyinə ağlamışıq, göz yaşlarımız səhifələrə axıb. Və oradaca quruyub qalıb, vərəqləri saraldıb. Kitabla ətrafımızdakı insanları sevirdik, dost, rəfiqə seçirdik. Kitabla pis, nankor insanlara nifrəti, onları məzəmmət, ictimai qınaq etməyi öyrənirdik. Kitab ən yaxşı yolgöstərənimiz idi. Gənc qızların ikinci anası, gənc oğlanların atası, qəhrəmanı, ərliyi, igidliyi, mərdliyi, namusu, qeyrəti idi...

Hazırda kitablarla bağlı lap dəhşətli bir vəziyyət hökm sürür. Kim yeni ev alırsa və ya evini təmir etdirirsə, kitab rəflərini yeniləməyə ehtiyac görmür, onları ləğv edir, kitabları atır.

### Hər evdə kitab rəfi vardı

Vaxt vardı ki, hər evdə kiçik də olsa, kitab rəfi vardı. O rəflərdə hər kəsin zövqünə uyğun kitablar yer alırdı. Kitab rəfi olmayan evlərə qəribə baxırdıq. Kitab rəfləri olan evlərdə ailə üzvlərinə hörmətimiz artırdı.

O zamanlar kitab rəfləri ziyalılığın göstəricisi idi. Həm də tək müəllimin, həkimin, jurnalistin, digər sahələrin təhsilli mütəxəssislərinin deyil, sıravi əmək adamlarının, kəndi zəhmətkeşin evində də kitab rəflərinin olması təhsilindən asılı olmayaraq hər kəsə bir ziyalılıq bəxş edirdi. Çünki hamı oxuyurdu. Özünü kitabsız təsvir edə bilmirdi.

Evlərdə qonaq otaqlarının ən böyük divarı kitab rəfləri üçün ayrılırdı. Ev sahibi buradakı yüzlərlə kitabı dəfələrlə oxuyub başa çıxandan sonra kitabxanalara üz tutur, yeni kitablar alıb gətirir, oxuyub yenidən kitabxanaya qaytarırdı. Kitabın qaytarılması üçün 3-7 gün vaxt verilirdi. Qaytaracağın tarix kitabın birinci səhifəsinə yazılırdı və həmin tarixdə kitab təhvil verilməli idi. Hələ elə olurdu ki, qoyulan vaxtdan bir qədər də tez qaytarıb yeni kitab alırdıq. Çünki gecələr valideynlərimiz "ay bala, işığı söndürün, gecdir, yatın",- deyəndə, işığı söndürür, elə ki onlar yatdılar, qalxıb yenidən yandırıb oxumağa başlayırdıq.



Kitablar günlərlə gecələri sübhə qədər oyaq qalmamızın səbəbi olurdu. O qədər maraqlı hadisələr, talelərlə qarşılaşırdıq ki, o hadisələrin sonunu, o talelərin axır aqibətini bilmədən kitabı qatlayıb bir kənara qoya bilmirdik. Bu səbəbdən də kitab bizim ən yaxın dostumuz, həmdəmimiz idi. Həyatımızın bir parçası idi...

### Kitabı əlimizdən alıb telefon verdilər...

Lakin təəssüf ki, illərdir, kitabı əlimizdən alıb əvəzində telefon verdilər. Bu telefonlar bizə nə etdi? Onu etdi ki, bir daha əlimizə kitab götürmədik. İllərin dostunu sonradan tapdığımız, hələ tanımadığımız müasir dostumuza qurban verdik. İllərin həmdəmini, sirdaşını, söhbət, and yerini sosial şəbəkələrə satdıq.

Kitablardan əl götürüb sosial şəbəkələrə qonaq olduq. Kitablarda bir hadisənin sonunu bilmədən onu əlimizdən yerə qoya bilmədiyimiz halda, sosial şəbəkələrdə dəyişib başqalaşdıq. Onu orda yarımçıq qoyduq, bunu burda. Bir az hadisələrin əvvəlinə baxdıq, maraqlı olmadığı üçün davam etmədik. diqqətimizi artıq tərbiyə alacağımız videolar, söhbətlər cəlb etmədi, tərbiyəmizi pozacaq video, söhbətlərə maraq göstərdik.

Bir zamanlar abır-həya, iffət deyilən gözəl duyğular öyrədən kitabları əlimizdən yerə qoyub telefonları götürəndə baxdıq ki, abır-həya, iffət yoxa çıxır, hər gün bir az... Kitablar bizə düzgün yol göstərirdisə, telefonlarda əsla bu yolları görə bilmədik. Baxdıq ki, gənc, cavan qız, gəlinlər sosial şəbəkələrdə özlərini reklam edir, ağıza alınmayacaq sözlər danışır, təkliflər edir. Baxdıq ki, yaşlı kişi-qadın burada elə hərəkətlər edir ki, adam yaşlanacağına nifrət edir. Baxdıq ki, uşaqlar bu şəbəkələrdə meymun edib oynadırlar. Çox təəssüf...

Kitabı əlindən alınmış bizlər nə etdik? Uşaqlarımıza kitab oxumaq, onların əlinə kitab vermək əvəzinə telefon verdik, saatlarla kompüter, televizor qarşısında əyləşdirdik. Uşaq yemək yemədi, telefonu verdik əlinə, o, telefonda bizim mentalitetə uyğun olmayan cizgi filmlərinə baxa-baxa ağzını açdı,



biz də onu yedirtdik.

Serialımız başladı, "nə edək ki, bu uşaq bizə mane olmasın" dedik. Telefonu verdik əlinə, oturtduq televizor qarşısında. Ta uşaq orada nəyə baxdı, baxarkən qarşısına nələr çıxdı, fərqinə varmadıq. Biz ayılanda artıq iş işdən keçmişdi.

Rəfiqəmiz zəng vurdu, biz də nə az, nə çox, onunla düz bir-iki saat danışmağa başladıq. Uşaq haradadır, harada olacaq, əlində telefon, evin bir küncündə. Sabah nə olur? Uşaq artıq bizim geyindirdiyimiz paltarları, bişirdiyimiz yeməkləri, ona qarşı münasibətləri bəyənmir. Ayaqlarını yerə dirəyir ki, mən öz seçdiyim paltarı geyinəcəyəm, arzuladığım yeməyi yeyəcəyəm, ata-ana isə mənə cizgi filmindəki qəhrəmanın yanaşması kimi yanaşacaq.

Nəticə isə budur ki, biz öz əllərimizlə, öz xəstə təfəkkürümüzlə övladlarımızın gələcəyini məhv edirik. Bunu bizə kənardan etmirlər, bəli, özümüz edirik. Bilə-bilə, görə-görə...

### Evlər təmirə, kitablar zibilliyə...

Bəli, bu, bir faktdır ki, köhnə evində kitab rəfi olan yeni adam evinə köçəndə artıq buna ehtiyac görmür. Və yaxud da evini təmir etdirirsə, artıq təmirli evində kitab rəflərini istəmir. Maraqlıdır, nə üçün belədir? Sosioloq Elçin Bayramlı deyir ki, son getdiyim 20-30 evdə kitab rəfinə rast gəlməmişəm. Bu, bir faktdır ki, insanlar evlərini təmir etdirəndən sonra kitabları yeni təmirli evlərinə yaraşdırmır. Dəfələrlə şahidi olmuşam ki, bir evdə təmirə başlandı, sabahı gün kitablar məişət tullantıları atılan qutuların yanında olur.

Sosioloqun fikirləri ilə tamamilə razılaşıram ki, bəli, evlərdə artıq kitab rəflərinə tədadüfi hallarda rast gəlmək olur. Məsələn, həmişə getdiyin evdir. Böyük də kitabxanası var. Mənzil sahibi evini dəyişir və ya təmir etdirir, baxırsan ki, kitabxana ixtisara düşdü. Soruşanda da deyirlər ki, əşi, kiril əlifbası ilə olan kitablar idi əksəriyyəti, indi onlar nəyə gərəkdir...

Necə yeni nəyə gərəkdir? Biz zamanlar onlardan həyatı, mədəniyyəti, davranış qaydalarını, özünümüdafiəni, hüquqlarımızı öyrənmişik. Biz özümüz o kitabları oxuya bilirik. Belə isə onları niyə atmalıyıq? Onda belə çıxır ki, bizi böyüdən, qayğı göstərən, ömürlərini verən valideynlərimizə qocalanda deyək ki, daha bizə lazım deyilsiniz?..

Kitablar da əslində bizim doğmamızdır. Onları qorumaq əzizlərimizi qorumaq qədər vacibdir. Lakin biz çox dəyişmişik. Necə ki, bəzilərimiz yaşlanan ata-analarımızı bəyənmir, heç nəyi artıq bizə xoş gəlmir, bir yerdə yaşamaq istəmirik, onları evin içində tək qoyub ayrı yaşayır və yaxud da hər hansı bir qocalar, ahıllar evinə yerləşdiririk, kitablara da münasibətimiz eynidir. Onlardan zamanında oxumağımıza, öyrənməyimizə, əxz



etməyimizə, bəhrələnməyimizə baxmayaraq, artıq əlifba dəyişib, kitablar da sanki yaşlaşıblar, onlara nə ehtiyac var ki, fikrindəyik.

Bu səbəbdən də yeni evlərimizə, təmirli mənzillərimizə vərəqləri köhnələn, cildləri sökülən kitabları yaraşdırmırıq. Axı onların köhnə görünüşü bizim yeni mənzilimizin gözəlliyinə xələl gətirər. Bu səbəbdən də "bu gün təmir başlanılan evi harada görsəniz, bilin ki, sabah zibillikdə kitabları görəcəksiniz",- deyir sosioloq Elçin Bayramlı. Və sosioloq kitabsevərlərə onu da məsləhət bilir ki, harada təmirə başlayan ev görsəniz, sabahı həmin evə yaxın tullantı yerində istədiyiniz kitabı əldə edə bilərsiniz. Beləliklə, görün biz nə günlərə qaldıq...

### Kitabsız ev-soyuq məzar

Mən kitabsız evləri soyuq məzara bənzədirəm. Kitab evlərə istilik, səmimiyyət, asidə vaxtın səmərəliliyini bəxş edir. 90-cı illərdə ölkəmizdə iqtisadi tənəzzül dövründə günlərlə elektrik enerjisi tapa bilmədiyimiz vaxtlarda çıraq işığında oxuduğumuz kitablar bizim köməyimiz oldu. Həmin dövrün ağırlığını kitab oxumaqla dəf edə bildik. Uzun günlərin, gecələrin öhdəsindən kitabla birlikdə gəldik.

Lakin indi həmdəmimiz olan kitablara ta evimizdə yer yoxdur. Unutmuşuq onları, həyatımızdan çıxarmışıq. Evimizə yaraşdırmırıq. İndi biz yalnız telefonlara-gecə-gündüz özümüzdən kənara qoymadığımız, gecə yatanda da yastığımızın yanında yer alan kabusa üstünlük veririk. Saatlarla telefonlarda qalırıq, sosial şəbəkələri gəzirik. Ruhumuzu, mənəviyyatımızı, dünyamızı zəhərləyirik.

Dərketmə qabiliyyətimiz o qədər zəifləyib ki, nəyin xeyrimizə, nəyin ziyanımıza olduğunu artıq düşünə bilmirik. Düşünsəydik, əsla kitabları əlimizdən yerə qoyub telefonları-bizi ölümə hər gün yaxınlaşdıran bu süni intellekt vasitəsini almazdıq.

Uzun illər kitab oxuduq, faydasını hələ də görürük. Bu telefonların "faydasını" da görməkdəyik. Artıq hələ ömrü kitablardan çox gənc olan telefonların "töhfəsini" müəyyən qədər görmüşük. Gör onlar kitabların yaşına gələndə nələri görəcəyik. Təəssüf etməkdən başqa çarə yoxdur...

**Mətanət Məmmədova**






# Regionların sosial-iqtisadi inkişafı prioritet məsələdir

***Regionların sosial-iqtisadi inkişafı məhz elə dövlətin inkişafında da, tərəqqisində də əvəzsiz rola malikdir və elə buna görə də hər zaman prioritet olaraq qəbul edilir. Çünki məhz regionların sosial-iqtisadi inkişafı ümümi tərəqqi üçün əsaslı zəmin yaradır və görünür elə buna görə də regionların sosial-iqtisadi inkişafına dövlətimiz tərəfindən xüsusi diqqət ayrılıb. Bu məqamda onu da nəzərə almaq lazımdır ki, elə regionların sosial-iqtisadi inkişafına da məhz dövlətin sosial-iqtisadi siyasəti ilə nail olunur və buna görə də prioritet sayılır.***





İlk öncə diqqətdə saxlamaq lazımdır ki, regionların sosial-iqtisadi inkişafı məhz həmin regionun coğrafi baxımdan yerləşməsindən, makroiqtisadi şəraitindən, rayonun sosial əmək bölgüsündə tutduğu mövqedən, hansı təbii ehtiyatlara malik olmasından bilavasitə asılıdır. Daha dəqiq desək, rayonun hansı təbii ehtiyatlara, hansı iqlimə, hansı relyefə və hansı imkanlara malik olması ilkin şərt hesab olunur. Məsələn, rayonun hansı kənd təsərrüfatı məhsulunun yetişdirilməsi üçün daha əlverişli şəraitə malik olması öncədən nəzərdən qaçırılmamalıdır. Beləki, respublikamızın rayonları öz coğrafi mövqeyi baxımından əkinçiliyin, bitgiçiliyin, bağçılığın, meyvəçiliyin, yaxud da heyvandarlığın, eləcə də quşçuluğun inkişafı üçün daha əlverişli şəraitə malik ola bilər və bu, əvvəlcədən nəzərə alınmalıdır. Əgər bu məqam nəzərə alınmazsa məhsuldarlıq baxımından müvafiq göstəriciyə nail olmağa ümid etməyə belə dəyməz. Nümunə üçün qeyd edək ki, elə torpaqlar vardır, həmin torpaqlarda bir hektardan 75 sentner taxıl tədarük edildiyi halda, digər ərazilərdə bu rəqəm 20-25 sentner olur, deməli, taxıl üçün daha məhsuldar ərazilərin taxılçılıqla məşğul olması məhsuldarlıq və ümumiyyətlə, hər mənada daha məqsədəuyğundur. Məhz elə buna görə də ölkəmizin rayonları müxtəlif kənd təsərrüfatı məhsulları ilə ixtisaslaşıb.

Azərbaycanın ərazilərində kənd təsərrüfatı məhsullarının yetişdirilməsi tarixi çox qədim dövrə təsadüf edir. Rayonlarımızın ərazilərində hələ qədimdən əkinçiliklə də, meyvəçiliklə də, heyvandarlıqla da və digər kənd təsərrüfatı sahələri ilə də məşğul olunub. Ümumiyyətlə, hələ qədimdən xalqımızın bu istiqamətdə məşğuliyyəti tarixi faktlarda, hətta ədəbiyyatlarda belə öz əksini tapir. İnsanlar öz dolanışıqlarını məhz kənd təsərrüfatı məhsullarının tədarükü ilə təmin ediblər. O zamanlar insanlar bu kimi işlərdə böyük çətinliklərlə qarşılaşırdılar. Məsələn, texnika olmadığına görə əkin-biçin işlərində ev heyvanlarından istifadə edirdilər və heç bir köməkdən də söhbət belə gedə bilməzdi. Zaman keçdikcə elmi-texniki tərəqqi sayəsində əldə edilən texniki vasitələr bu işi xeyli yüngülləşdirdi, amma kömək hələ də yox idi. Müstəqilliyimizi yenidən bərpa etdikdən sonra dövlətimiz məhz kənd təsərrüfatı məhsulları istehsal edən, idxal edən fermerlərə böyük köməkliklər etməyə başladı. Təbii ki, məqsəd regionların sosial-iqtisadi inkişafında dövlət dəstəyinin göstərilməsi, nəticədə də məhsuldarlığın, eləcə də insanların rifah halının daha da yaxşılaşdırılması idi. Artıq şahidi oluruq ki, regionların sosial-iqtisadi inkişafında dövlət dəstəyinin əsaslı rolu var və məhz buna görə də dövlətimiz hər il davamlı olaraq öz dəstəyini göstərməkdədir. Eləcə də dövlətimiz tərəfindən regionların sosial-iqtisadi inkişafı məqsədi ilə davamlı şəkildə maliyyə vəsaitlərinin ayrılmasının da şahidiyik. Sözsüz ki, bu vəsaitlərin ayrılması məhsuldarlığın, məşğulluq səviyyəsinin artmasına əsaslı zəmin deməkdir və əminik ki, hər dəfə olduğu kimi, hər il olduğu kimi, bunun da arzuolunan müsbət nəticələri ilə qarşılaşacağıq.

Sözsüz ki, dövlət dəstəyinin müsbət nəticələri əvvəlcədən də gözlənilən idi və indi respublikamızın bəzi rayonlarının artıq dövlət dəstəyi belə olmadan özünümaliyyələşdirmə, yerli gəlirlər hesabına öz xərclərini təmin edə bilmə imkanları bu gözləntiləri doğrultdu. Bu, məhz düzgün aparılan sosial-iqtisadi siyasətin və inkişafın gözlənilən müsbət nəticəsi olaraq xarakterizə edilir. Elə buna görə də, məzh regionların sosial-iqtisadi inkişafı diqqət mərkəzində, eləcə də prioritet məsələ sayılır və bundan sonra digər rayonlarda da özünümaliyyələşdirmə, yerli gəlirlər hesabına öz xərclərini təmin edə bilmə imkanları gözləniləndir. Nəticə etibarı ilə bu, özü-özünü maliyyələşdirəcək rayonların sayının artması, dövlət büdcəsindən asılılığın aradan qaldırılması deməkdir və büdcəyə qənaət baxımından bunun da nə qədər əhəmiyyətli olduğu aydın məsələdir. İqtisadi inkişafın da məhz bu demək olduğu yəqin ki, hamıya bəllidir və dinamik inkişaf bu ənənədən bilavasitə asılıdır.

Əlbəttə ki, regionların sosial-iqtisadi inkişafında dövlət dəstəyi hazırda daha çox işğaldan azad olunmuş rayonlar, ərazilər üçün lazımdır. Düz 30 il bundan əvvəl erməni vandalları tərəfindən dağıdılmış, viran qoyulmuş həmin rayonların dirçəldilməsi əvvəla birinci şərtdir. Sözsüz ki, bu şərtin öhdəsindən gəlmək üçün ilk növbədə bütün infrastruktur layihələri reallaşdırılmalıdır. Təbii ki, bu istiqamətdə dövlətimizin gördüyü işləri təkzib etmək mümkün deyil, çünki bu işlər sadaladıqca bitən deyil. Məsələn, işğaldan azad etdiyimiz ərazilərdə müxtəlif obyektlərin tikilib istifadəyə verilməsi, yenilərinin təməlinin qoyulması ilə yanaşı, yeni avtomibil magistrallarının, dəmir yollarının, hətta beynəlxalq səviyyəli hava limanlarının istifadəyə verilməsi, yenilərinin də inşası göz önündə baş verib və dünya ictimaiyyəti Azərbaycanın ən qısa zamanda hansı işlər gördüyünə heyranlığını da gizlətmir. Heç şübhəsiz ki, infrastrukturun yaxşılaşdırılmasının nə demək olduğu hamıya bəllidir və sir deyil ki, bu, məşğulluq, iqtisadi əlaqələr, nəticədə də iqtisadiyyatın inkişafına böyük töhvələr deməkdir. Çünki infrastuktur layihələrinin gerçəkləşməsi, regionda infrastrukturun olması həm daxili imkanların səfərbər edilməsi üçün, həm də xarici sərmayələrin cəlb edilməsi baxımından əvəzsizdir.

Etiraf etmək lazımdır ki, aparılan abadlıq-quruculuq işləri hesabına regionların inkişafı özünün yeni yüksəliş mərhələsinə qədəm qoyub. Bu isə ölkədə iqtisadiyyatın qeyri-neft sektorunun inkişafına yeni təkan deməkdir. "Ağıllı şəhər", "ağıllı kənd" və "yaşıl enerji" konsepsiyalarından geniş istifadə edilməsi iqtisadi inkişafı əhəmiyyətli dərəcədə sürətləndirdiyi müşahidə edilməkdədir. Yeni-yeni turizm və sənaye müəssisələri tikilməsi isə isə onu deməyə əsas verir ki, regionlarımız artıq daha sürətli inkişaf mərhələsindədir. Bu isə sözsüz ki, təsadüfi deyil və ondan xəbər verir ki, regionların sosial-iqtisadi inkişafı prioritet məsələdir.

***İnam Hacıyev***



# Məğlub dövlət və xalq öz seçimində tələsməlidir!

***Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ümummilli lider Heydər Əliyevin siyasi kursunu ləyaqətlə davam etdirərək, ölkəmizdə milli dövlət quruculuğu prosesinin uğurlu inkişafı, demokratik dövlət idarəçiliyi modelinin yaradılması, vətəndaş cəmiyyətinin bərqərar olunması, respublikanın iqtisadi inkişafının təmin olunması istiqamətində tarixi nailiyyətlərə yol açır. Bütün bunlar əslində Prezident İlham Əliyevin Azərbaycan tarixinə yeni missiya ilə qədəm qoyduğunu təsdiqləyir. Bu missiyanın fəlsəfəsi "Əsl siyasət konkret, real iş görməkdən ibarətdir" deyərək fəaliyyətə başlayan cənab ilham Əliyevin 2003-cü ildə söylədiyi "Mən hər bir Azərbaycan vətəndaşının Prezidenti olacağam, hər bir Azərbaycan vətəndaşının qayğı və problemlərinin həlli yolunda bütün bacarıq və qabiliyyətimi əsirgəməyəcəm" fikirləri ilə real məzmun kəsb etməyə başladı.***

Və bu gün dövlət başçısı respublikada sürətli sosial-iqtisadi inkişaf və tərəqqiyə, siyasi sabitliyə, vətəndaş sülhünə ciddi təminat yaratmış strateji siyasi kursu uğurla davam etdirərək hər bir azərbaycanlının Prezidenti olduğunu sübuta yetirmiş, verdiyi bütün vədləri gerçəkləşdirmişdir. Öz fəaliyyəti ilə ümummilli liderə layiq şəxsiyyət olduğunu sübuta yetirən Prezident müasir dövrün tələb etdiyi siyasi lider imicini formalaşdırmışdır.

Elə mayın 31-də Prezident İlham Əliyev cənablarını Laçın şəhərinə səfəri zamanı laçınlılar, bütün Azərbaycan xalqı, bütün dünya gördü ki, bu gün Azərbaycan aparıcı dünya dövlətlərinin sayəsində deyil, Prezident İlham Əliyevin qəti və dönməz mövqeyi nəticəsində ədalət, ərazi bütövlüyümüz bərpa olundu.

## PREZİDENT İLHAM ƏLİYEVİN MÜRACİƏTLƏRİ VƏ SƏRT MESAJLARI ƏDALƏT PRİNSİPLƏRİNƏ ƏSASLANIR

Elə mayın 28-də Prezident İlham Əliyev Laçın sakinləri ilə görüşü zamanı bildirdi ki, Laçında mayın 28-də – Müstəqillik Günündə bu görüşün keçirilməsinin əhəmiyyətini vurğulayaraq qeyd edib ki, bunun böyük rəmzi mənası və bu gün ikiqat bayramdır: "Çünki bu gün Laçın şəhərinin sakinləri uzun fasilədən sonra öz doğma şəhərinə qayıdıblar və bu münasibətlə həm sizi, həm də bütün Azərbaycan xalqını təbrik etmək istəyirəm... Bu gün yeni Laçın şəhərinin yeni siması müstəqilliyimizin nə qədər güclü olmasını bir daha göstərir. Mən dəfələrlə həm Laçından, həm də o vaxt işğal edilmiş digər rayonlardan köçkünlərlə görüşəndə onlara ürək-dirək verirdim, deyirdim ki, qayıdacağıq, qayıdacağıq!".

2011-ci il dekabrın 24-də ad günündə laçınlı köçkünlərlə Ağcabədi rayonunun Taxtakörpü qəsəbəsindəki görüşünü xatırladan Prezident İlham Əliyev deyib: "Əgər indi 11 il bundan əvvəlki görüşün videoyazısına baxsanız, görərsiniz demişdim ki, qayıdacağıq və Laçında daha gözəl evlər tikiləcək. Bax, belə də oldu".

Prezident diqqətə çatdırıb ki, cəmi 7-8 ay ərzində şəhərin böyük hissəsi tamamilə yenidən qurulub: "İlk 20 ailə artıq dünəndən Laçında yerləşibdir və iyun ayının sonuna qədər əlavə bir çox ailələr gələcək. Beləliklə, birinci mərhələdə Laçında 4 minə yaxın, bəlkə də çox insan yaşayacaqdır. Bütövlükdə 7-8 ay ərzində 700 bina inşa edilib, onlardan 620-si fərdi yaşayış binası, 9 çoxmənzilli bina və orada 144 mənzil hazırlanıbdır. Beləliklə, artıq 764 ailə Laçın şəhərində yaşaya bilər. Amma bu, hələ tam proqramımız deyil. Laçın şəhərinin Baş planı hazırlanıb və bu gün təqdim ediləcək. Laçın şəhərində ikinci mərhələdə görüləcək işlərlə bağlı bizim çox dəqiq təsəvvürümüz var və beləliklə, hesab edirəm ki, ilin sonuna qədər daha çox insan Laçında yaşaya biləcək...".

Prezident xatırladıb ki, Laçın şəhəri Azərbaycanın tam nəzarətinə 2022-ci ilin avqustunda qayıdıb: "Müharibə zamanı dəfələrlə deyirdim ki, Ermənistan rəhbərliyi mənə tarix verməlidir, bizim torpaqlarımızdan öz qoşunlarını nə vaxt çıxaracaq, ancaq o təqdirdə biz müharibəni dayandıra bilərik. Şuşa işğaldan azad olunandan, bir çox kəndlər azad olunandan sonra Ermənistan faktiki olaraq kapitulyasiya aktına imza atmışdır.. Bax, bu, bir daha onu göstərir ki, hər bir qarış torpaq bizim üçün əziz və doğmadır. Hər şəhər, hər kənd bizimdir və torpaqdan pay ola bilməz. Danışıqlar zamanı müxtəlif mərhələlər olub, müxtəlif məqamlar olub. Təzyiqlər də olub, hədələr də olub və bəziləri bizi işğalla barışmaq üçün böyük səylər göstərirdilər. Ancaq bizim əyilməz mövqeyimiz, iradəmiz bütün bu səyləri altüst etmişdir. Mən deyirdim ki, heç bir güzəşt ola bilməz. "Beş rayon bizə qaytarılsın, iki rayon qalsın əbədi ermənilərin nəzarəti altında" - bu, mümkün deyil. Biz bir kəndi də güzəştə getmək fikrində deyildik və bu gün bunu sübut etdik".

## PREZİDENT İLHAM ƏLİYEV CƏNABLARININ XALQA MÜRACİƏTİNDƏ DEYİLƏNLƏRİ HƏMİŞƏ HƏYATA KEÇİRƏN DÜNYA SƏVİYYƏLİ SİYASƏTÇİNİN SƏRT, ƏDALƏTLİ, KONKRET MESAJLARIDIR

Bəli, Azərbaycan Prezident İlham Əliyev cənablarının xalqa müraciətində deyilənləri həmişə həyata keçirən dünya səviyyəli siyasətçinin sərt, ədalətli, konkret mesajlarıdır. Bu mesajlarında məğlub dövlətə və onun məğlub xalqına dəfələrlə çatdırıb ki, xalqa, dövlətə yanan lider seçməlisiniz, nə qədər ki, səviyyəsiz lider var ağır günlər keçirəcəksin, ayılın!

## *PREZİDENT İLHAM ƏLİYEV: "Mən bu şərtləri, bax, burada, Laçın şəhərində deyirəm ki, hər kəs görsün ki, biz bu gün buradayıq və burada əbədi olacağıq"*

Elə mayın 28-də Laçın sakinləri ilə görüşündə də bir daha bildirdi ki, "Artıq "miatsum" kitabı bağlandı, separatizmə son qoyuldu, müstəqillik arzuları status kimi getdi. Və biz ikinci Qarabağ müharibəsi zamanı statusu lazımi yerə göndərdik» deyən dövlətimizin başçısı, Qarabağda yaşayan ermənilərə yeganə çıxış yolunu göstərdi: "Azərbaycan qanunlarına tabe olmaq, Azərbaycanın loyal normal vətəndaşı olmaq, öz dıqnaqarası saxta dövlət atributlarını zibil yeşiyinə atmaq, "parlament"i buraxmaq. Guya orada "parlament" fəaliyyət göstərir, guya orada prezident var, guya nazir var, bunlar hamısı gülməlidir. Biz, sadəcə olaraq, dözüm göstəririk. Halbuki hər kəs yaxşı bilir ki, bu gün o bölgədə istənilən əməliyyatı keçirmək üçün hər bir imkanımız var. Ona görə "parlament" buraxılmalıdır, özünü "prezident" adlandıran ünsür təslim olmalıdır, bütün "nazirlər", "deputatlar" və digərləri öz vəzifələrini artıq kənara qoymalıdırlar. Ancaq o təqdirdə onlara güzəşt oluna bilər".

## SƏRHƏDLƏRİN DELİMİTASİYASI BİZİM ŞƏRTLƏRİMİZ ƏSASINDA OLMALIDIR

Bəli, bütün bu tələblər qanuni və ədalətlidir. Azərbaycanın istənilən yolla onların həyata keçirilməsinə nail olmaq imkanı var. Dövlətimizin başçısı bir daha bildirdi ki: "Ona görə bu gün də deyirəm, hələ ki, gec deyil. Hələ ki, Ermənistanın de-fakto olmasa da, hüquqi cəhətdən müstəqilliyi var, hələ ki, Ermənistan sərhədləri anlayışı müəyyən mənada qəbul edilir. Onlar bizim şərtlərimizi qəbul etməlidirlər. Delimitasiya istəmirlərsə, olmasın delimitasiya. Onda nə olacaq, harada desək, sərhəd də orada olacaq. Onlar bilirlər ki, biz bunu edə bilərik. Heç kim onlara kömək etməz, nə Avropadan gələn pensiyaya çıxmış Fransa polisləri, nə də başqaları, heç kim. Ona görə delimitasiya bizim şərtlərimiz əsasında, yəni, ədalətli şərtlər əsasında olmalıdır, sülh müqaviləsi beynəlxalq şərtlər əsasında olmalıdır, Naxçıvana yolumuz açılmalıdır və Qarabağda hələ də kök salmış Ermənistan ordusunun nümayəndələri oradan çıxarılmalıdır. Bu, bizim şərtlərimizdir. Mən bu şərtləri, bax, burada, Laçın şəhərində deyirəm ki, hər kəs görsün ki, biz bu gün buradayıq və burada əbədi olacağıq. Onu da bilsinlər ki, Ermənistan kəndləri buradan görünür. Biz də görürük o kəndləri, yəni, onu da unutmasınlar".

"Mən bu şərtləri, bax, burada, Laçın şəhərində deyirəm ki, hər kəs görsün ki, biz bu gün buradayıq və burada əbədi olacağıq. Onu da bilsinlər ki, Ermənistan kəndləri buradan görünür. Biz də görürük o kəndləri, yəni, onu da unutmasınlar", - deyə dövlətimizin başçısı qeyd edib.

Təhlil

Həmçinin, dövlətimizin başçısı bildirib ki, Ermənistan anlamalıdır ki, bütün bu nailiyyətlər qüdrətli, güclü iqtisadiyyata sahib olan müstəqil Azərbaycanın bu təklifdir və bu uzun müddət massa üzərində qalmayacaq!: "...Ona görə bu gün də deyirəm, hələ ki, gec deyil. Hələ ki, Ermənistanın de-fakto olmasa da, hüquqi cəhətdən müstəqilliyi var, hələ ki, Ermənistan sərhədləri anlayışı müəyyən mənada qəbul edilir. Onlar bizim şərtlərimizi qəbul etməlidirlər. Delimitasiya istəmirlərsə, olmasın delimitasiya. Onda nə olacaq, harada desək, sərhəd də orada olacaq!".

## "NƏ DEYİRİKSƏ, ONU DA EDİRİK!"

Bəli, Azərbaycan Lideri heç vaxt populist vədlər vermir. Onun sözü və imzası eyni çəkiyə malikdir və Azərbaycan xalqı son 20 ildə həmişə müşahidə görüb ki, Prezident İlham Əliyev bütün ümummilli məsələlərdə qətiyyət nümayiş etdirir və Azərbaycanın haqlı mövqeyinin təsdiqlənməsinə nail olur.Bu gün Ermənistan İkinci Vətən müharibəsinində ermənistan kapitulyasiya olaraq tamamilə aciz vəziyyətdə olmaqla, hələ də acı məğlubiyyətin ağrılarını, yaralarını sağalda bilmir. Onlara böyük psixoloji zədə, travma vuruldu, bu, təbiidir. Azərbaycan postmüharibə dövründə də liderlik göstərdi.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bu gün bizim yaşadığımız reallıq məhz İkinci Qarabağ müharibəsindən sonra keçən dövr ərzində əldə edilmiş nəticələr əsasında formalaşıb. Reallığı düzgün dəyərləndirən Azərbaycan Lideri deyirdi ki, ATƏT-in Minsk qrupunun xidmətlərinə, - əslində, bu, ayı xidməti idi, - ehtiyac yoxdur. Azərbaycan ilk gündən qarşı tərəfə ərazi bütövlüyü prinsipi əsas tutularaq sülh müqaviləsi imzalanmasını təklif edib. Lakin Ermənistan üçtərəfli Bəyanatdakı digər şərtlər kimi, Laçın dəhlizi ilə bağlı öhdəliyini də yerinə yetirmək istəmir və manipulyasiyalara əl atırdı. Belə ki, öz ərazisinə düşən 7 kilometrlik yolun inşasını süni şəkildə ləngidir, təxribatlarla prosesi uzatmağa çalışdı. Ötən ilin avqust-sentyabr aylarında baş verənlər İrəvanın oyun oynadığını, Bakının isə qətiyyətli addımlarla bu oyunu pozduğunu tarixə yazdı. Azərbaycan yeni yolu nəzərdə tutulan 3 ilə yox, bir il yarıma inşa etdi və sülhməramlıların yeni marşruta köçməsi tələbini irəli sürdü.

Yeni yolun istifadəyə verilməsindən sonra Laçının döyüşsüz geri qaytarılması çox doğru olaraq Qarabağda suverenliyimizin təmin edilməsi məsələsində əsas mərhələlərdən biri kimi dəyərləndirilir. Bundan sonra Qarabağda hərbi və strateji üstünlük böyük ölçüdə Azərbaycanın xeyrinə dəyişdi, xüsusilə yolda vizual nəzarətin güclənməsi ermənilərin qeyri-qanuni fəaliyyətlərinin də ifşasına şərait yaratdı. Təsdiq olundu ki, ermənilər Laçın yolundan Qarabağa silah-sursat, canlı qüvvə daşıyır, Azərbaycan daxilində qanunsuz "ordu" formalaşdırırlar. O cümlədən, Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan ərazilərimizdəki mədənlərin qanunsuz istismarı nəticəsində təbii sərvətlərimiz Ermənistana bu yolla daşınırdı. Təbii ki, məğlub Ermənistanın bu qəbildən olan davranışları Azərbaycan cəmiyyətində etirazlar yaradırdı. Azərbaycanlı ekoloqlar və vətəndaş cəmiyyətinin təmsilçiləri ötən il dekabrın 12-də Laçın-Xankəndi yolunda dinc etiraz aksiyasına başladılar. Cari il aprelin 23-də isə respublikamız Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd-keçid məntəqəsi qurdu. Bununla da Azərbaycan məsələni birdəfəlik həll etdi.

Postmüharibə dövründə ölkəmizin regionda yaratdığı reallıqlara diqqət çəkən Prezident İlham Əliyev vurğulayıb: "Yəni, bütün bu reallıqları yaradan biz olmuşuq. Məhz bunun nəticəsində İkinci Qarabağ müharibəsinin başa çatmasından sonra həm Azərbaycan-Ermənistan sərhədində, həm Rusiya sülhməramlı qüvvələrinin nəzarətində olan ərazilərdə, həm sərhəd-buraxılış məntəqəsini qoymaqla biz yeni reallıq yaratdıq və Ermənistanı məcbur etdik ki, bizim dediyimizi onlar da təkrarlasın. Mən bunu İkinci Qarabağ müharibəsi başa çatandan sonra demişdim, Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi o halda mümkündür ki, onlar deyəcəklər: Qarabağ Azərbaycandır! Onlar cəmi 3-4 il bundan əvvəl "Qarabağ Ermənistandır" deyirdilər və hesab edirdilər ki, bizim torpaqlarımızı əbədi işğal altında saxlaya bilərlər. Hesab edirdilər ki, biz azərbaycanlılar bu vəziyyətlə barışacağıq. Mən isə deyirdim ki, yox, barışmayacağıq. Onlara da, onların havadarlarına da, onlara bu gün dəstək verənlərə də o vaxt deyirdim ki, biz heç vaxt barışmayacağıq. Həyat bir daha onu göstərdi ki, nə deyiriksə, onu da edirik. Bir neçə gün bundan əvvəl Ermənistan rəhbərliyi tərəfindən verilən açıqlama faktiki olaraq mənim bir neçə il bundan əvvəl dediyim "Qarabağ Azərbaycandır!" sözlərimin təkrarıdır".

Artıq Ermənistan ərazi bütövlüyümüzü tanıdıqdan sonra faktiki olaraq sülh müqaviləsi üçün hər hansı bir ciddi maneə qalmayıb. Prezident İlham Əliyev əminliyini ifadə edərək bildirib ki, yaxın gələcəkdə, - əgər yenə də Ermənistan saxtakarlıq etməsə və yenə də öz mövqeyini dəyişməsə, - sülh müqaviləsi imzalana bilər. "İmzalansa çox yaxşı, imzalanmasa da hər halda Azərbaycan dövləti buna görə heç bir problemlə üzləşə bilməz. Çünki güclü tərəf bizik, danışıqlar masasında güclü mövqeyə sahib olan bizik, sərhəddə güclü mövqelərə sahib olan bizik. Sülh müqaviləsi imzalanmasa da, biz rahat və təhlükəsizlik şəraitində yaşayacağıq", - deyə dövlətimizin başçısı əlavə edib.

## Sərhədlərin delimitasiyası ədalət prinsipi əsasında aparılmalıdır

Bəhs olunan çıxışında Prezident İlham Əliyev müxtəlif manipulyasiyalarla sülhə əngəllər yaradan Ermənistan hakimiyyətinə və Qarabağda yuva qurmuş separatçılara sərt mesajlarını ünvanlayıb. Ermənistan rəhbərliyi iki ölkə arasındakı şərti sərhədlərlə bağlı anlaşılmaz mövqe sərgiləyir. Məhz Ermənistanın məsuliyyətsiz davranışlarına görə də şərti sərhədlərdə anlaşılmazlıqlar yaşanır. İkinci Qarabağ müharibəsi başa çatandan sonra Ermənistanla Azərbaycan nümayəndələri belə bir razılığa gəliblər ki, əgər kimsə yolu azsa, maksimum iki günə o adamlar qaytarılmalıdırlar. İndiyədək Azərbaycan buna əməl edib. Yolu azan erməni hərbiçiləri və mülki vətəndaşlar maksimum iki gün saxlandıqdan sonra sorğu-suala tutularaq buraxılıblar. Ermənistan isə razılaşmaya əməl etmir. Qarşı tərəf bu yaxınlarda yolu azmış Azərbaycan hərbiçilərini vəhşicəsinə döyüblər, qandallayıblar, ləyaqətərini alçaldıblar, döyülmə anlarını videoya çəkiblər. Ondan sonra həbs ediblər və 11 il iş veriblər. Bu, dözülməzdir. "Onlar bizim şərtlərimizi qəbul etməlidirlər. Delimitasiya istəmirlərsə, olmasın delimitasiya. Onda nə olacaq, harada desək, sərhəd də orada olacaq. Onlar bilirlər ki, biz bunu edə bilərik. Heç kim onlara kömək etməz, nə Avropadan gələn pensiyaya çıxmış Fransa polisləri, nə də başqaları, heç kim", - deyə Prezident İlham Əliyev bildirib.

Bəhs olunan görüşdə dövlətimizin başçısı Azərbaycanın digər şərtlərini də səslləndirib. Bu xüsusda fikirlərini ifadə edən Prezident İlham Əliyev deyib: "Delimitasiya bizim şərtlərimiz əsasında, yəni, ədalətli şərtlər əsasında olmalıdır, sülh müqaviləsi beynəlxalq şərtlər əsasında olmalıdır, Naxçıvana yolumuz açılmalıdır və Qarabağda hələ də kök salmış Ermənistan ordusunun nümayəndələri oradan çıxarılmalıdır. Bu, bizim şərtlərimizdir. Mən bu şərtləri, bax, burada, Laçın şəhərində deyirəm ki, hər kəs görsün ki, biz bu gün buradayıq və burada əbədi olacağıq. Onu da bilsinlər ki, Ermənistan kəndləri buradan görünür. Biz də görürük o kəndləri, yəni, onu da unutmasınlar".

## "YA ONLAR AZƏRBAYCAN BAYRAĞI ALTINDA YAŞAYACAQLAR, YA DA ÇIXIB GEDƏCƏKLƏR"

Azərbaycan Prezidenti bütün çıxışlarında, müsahibələrində, görüşlərdə dəfələrlə bildirib ki, artıq Ermənistanını bir yolu qalmayıb: "Yeganə yol qalıb – Azərbaycan qanunlarına tabe olmaq". Dövlət başçımız onu da bildirib ki, aprelin 23-də sərhəddə qoyulan sərhəd-buraxılış məntəqəsi bu gün Qarabağ bölgəsində yaşayan ermənilər üçün də bir dərs olmalıdır: "Əfsuslar olsun, onlar bu günə qədər kimisə arxalanırlar ki, kimsə gələcək onları xilas edəcək, kimsə gələcək Azərbaycanla müharibə aparacaq. Bunlar hamısı cəfəngiyyatdır. İkinci Qarabağ müharibəsi zamanı biz güclü iradə göstərmişik və əgər o vaxt heç kim bizə qarşı kənardan müdaxiləyə cürət etmədisə, bu gün bütün bu torpaqlara yenə də sahib olandan sonra kim gəlib ermənilərin yerinə bizimlə vuruşacaq? Birincisi, bu, qanunsuzdur. Biz öz doğma torpağımızdayıq və bu gün ermənilərin yaşadıqları Qarabağ bölgəsi bizim əzəli, hüquqi torpağımızdır. Sadəcə olaraq, biz hesab edirik ki, onlar özləri başa düşəcəklər, özləri gəlib Azərbaycan Bayrağı altında yaşamağa addım atacaqlar. Biz bunu gözləyirik. Ona görə hər hansı bir başqa addım atmırıq və hesab edirəm ki, iki il yarım ərzində baş vermiş hadisələr artıq onları da oyatmalıdır, bu yuxudan, bu xülyadan ayıltmalıdır".

Bir sözlə, müharibə bitib, mübahisəli delimitasiya şərtləridir. Cənab Prezidrntin qeyd etdiyi kimi, delimitasiya bizim şərtlərimiz əsasında, yəni, ədalətli şərtlər əsasında olmalıdır. Sülh müqaviləsi beynəlxalq şərtlər əsasında olmalıdır, Naxçıvana yolumuz açılmalıdır və Qarabağda hələ də kök salmış Ermənistan ordusunun nümayəndələri oradan çıxarılmalıdır. Son günlərin diplomatik danışıqları göstərir ki, proseslər Cənab Prezidentin irəli sürdüyü delimitasiya şərtlərinin həllinə aparır. Sonda Azərbaycan Prezidenti bir daha vurğuladı: "Bu gün müstəqil Azərbaycan dövləti həm dünya miqyasında öz mövqelərini kifayət qədər möhkəmləndirib, eyni zamanda, bu gün müstəqil Azərbaycan dövləti istənilən nəticəni əldə etməyə qadirdir".

Bir sözlə, bu müstəqil siyasət yürüdən, regionda lider dövlət olan Azərbaycanın məğlub etdiyi ölkəyə cızdığı yol xəritəsidir. Və Ermənistan nə qədər ki, gec deyil Azərbaycanın verdiyi bu fürsəti dəyərləndirməlidir, çünki başqa yolu yoxdur.

**RƏFİQƏ KAMALQIZI**

# Pentaqon Ukraynaya 2 milyard dollarlıq yeni yardım paketini açıqlayıb



ABŞ Müdafiə Nazirliyi Ukraynaya iki milyard dollardan artıq məbləğdə yeni hərbi yardım paketini açıqlayıb. Pentaqonun bəyanatında bura mühüm hava hücumundan müdafiə vasitələrinin və sursatın daxil edildiyi bildirilir. SİA-nın xarici qaynaqlardan əldə etdiyi məlumata görə, Müdafiə Nazirliyi bildirib ki, yeni tranş həm qısa, həm də uzunmüddətli perspektivdə Rusiyanın təcavüzünün qarşısını almaqda Kiyevin ABŞ-a davamlı dəstəyini nümayiş etdirir.

Qeyd edək ki, yeni yardım paketinə "Patriot" zenit-raket kompleksləri, hava hücumundan müdafiə sistemləri və "HAWK" raketləri, artilleriya mərmiləri və digər silah eləcə də avadanlıqlar üçün sursat daxildir.

***Ağasəf Babayev***

# "Azərbaycanlı tələbənin həbsi molla rejiminin xislətini göstərir"



"Azərbaycanda İranın casus şəbəkəsi ifşa olunduqca qarşı tərəfin aqressiyası da artır. Bu ölkədə azərbaycanlı tələbənin casusluq ittihamı ilə həbs olunması molla rejiminin əsl mahiyyətini açıq nümayiş etdirir. Bu hadisə 2008-ci ilin oktyabrında İranda qondarma bəhanə ilə həbs edilən azərbaycanlı alim Rəşid Əliyevlə bağlı məsələni xatırlatdı. O da heç bir səbəb olmadan casusluq ittihamı ilə həbsdə saxlanmışdı". Bu sözləri SİA-ya açıqlamasında deputat Könül Nurullayeva deyib.

Onun sözlərinə görə, bir neçə il əvvəl eyni ilə iki gənc şairimiz, AMEA-nın bir xanım üzvü də həbs olunmuşdu: "Görünən budur ki, İran təhlükəli ölkədir, ora səfər etmək vətəndaşlarımız üçün ciddi problemlərə səbəb ola bilər. Təcrübə göstərir ki, İrana səfər edən azərbaycanlılar xüsusi xidmət orqanları tərəfindən hədəfə götürülür. Belə ki, onların əməkdaşlığa cəlb edilməsinə çalışılır, bu alınmadıqda isə onlar qondarma səbəblərlə həbs edilir. Bu baxımdan, vətəndaşlarımızın İrana səfəri o qədər də məqsədəuyğun deyil".

Deputat sözlərinə davam edərək bildirib ki, ümumiyyətlə, İranın Azərbaycana qarşı ənənəvi düşmənçilik siyasəti heç vaxt dəyişməyib: "Otuz illik işğal dövründə Ermənistanın yanında olan, 44 günlük müharibə zamanı, ondan sonrakı dövrdə bunu daha açıq şəkildə büruzə verən rəsmi Tehranın niyyəti aydındır bölgədə sülh və təhlükəsizliyə mane olmaq, Azərbaycanın daha da güclənməsindən doğan narahatlığı gizlədə bilmir. Təsadüfi deyil ki, son vaxtlar Ermənistanla sülh müqaviləsi istiqamətində görülən işlərin intensivliyi artdıqca, Tehranın narahatlığı da artır. Amma bu aqressiyanın heç bir nəticəsi olmayacaq. Azərbaycanın qələbəsi sayəsində yaranmış yeni reallıqlar bölgənin rifahına yönəlib. İran da bu bölgənin ölkəsi kimi bu rifaha, təhlükəsizliyə dəstək verməlidir. Casus axtarışına çıxıb ikitərəfli münasibətləri daha da gərginləşdirməməlidir".

***Ləman Əlizadə***

# Milli dövlətçiliyimizin xilaskarı

## *Pirallahı rayonunda "Heydər Əliyev İli" çərçivəsində tədbir keçirilib*







***"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən Tədbirlər Planı çərçivəsində iyunun 9-da YAP Pirallahı rayon təşkilatı "Milli dövlətçiliyimizin xilaskarı" mövzusunda tədbir keçirib. Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin büstü önünə gül dəstələri düzülüb, Ulu Öndərin əziz xatirəsi dərin ehtiramla anılıb.***

Tədbirdə Dövlət Himni səsləndirilib. Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Daha sonra dahi şəxsiyyətin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.

Tədbiri giriş sözü ilə açan YAP Pirallahı rayon təşkilatının sədri Emil Abasov Ulu Öndər Heydər Əliyevin ölkəmizi müstəqilliyini itirmək, dünya xəritəsindən silinmək təhlükəsindən xilas edərək inkişaf yoluna çıxardığını bildirib. O qeyd edib ki, Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkədə baş vermiş sosial-iqtisadi və siyasi inkişaf dövlətimizin möhkəmlənməsində, sivil dünyaya inteqrasiya prosesinə qoşulmasında və modern cəmiyyətin qurulmasında həlledici rol oynadı.

YAP İdarə Heyətinin üzvü, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı söyləyib ki, Azərbaycan xalqı öz böyük oğlu Heydər Əliyevi yalnız siyasi lider kimi deyil, həm də milli dövlətçilik ideologiyasının şəriksiz müəllifi kimi qəbul edir. Çünki Heydər Əliyev siyasi kursundan kənarda Azərbaycan dövlətçiliyi yoxdur. Mübariz Qurbanlı müasir müstəqil Azərbaycanın Milli Qurtuluş Günü kimi tarixə əbədi həkk olunan 1993-cü il 15 iyun tarixinin önəmi və müstəqil dövlətçiliyimizin qorunub saxlanılmasındakı əvəzsiz rolu haqqında geniş məlumat verib.

"Yeni Azərbaycan" qəzetinin baş redaktoru Alqış Musayev deyib ki, bütün varlığı ilə vətəninə bağlı olan dünya şöhrətli dövlət xadimi Heydər Əliyev çağdaş tariximizdə əbədiləşmiş, respublikamıza rəhbərliyinin bütün dövrlərində xalq qarşısında misilsiz xidmətlər göstərmiş, xilaskarlıq missiyası yerinə yetirmişdir. Azərbaycançılıq məfkurəsinin müstəqil Azərbaycan dövlətinin ana xəttini təşkil etdiyini vurğulayan Alqış Musayev xalqımızın Ümummilli Lider Heydər Əliyevin siyasi varisi, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar şəxsiyyət kimi dünya siyasətində özünəməxsus yer tutan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ətrafında sıx birləşdiyini söyləyib.

YAP Veteranlar Şurasının üzvü Nazim İsmayılov çıxışında vurğulayıb ki, Azərbaycan xalqı hər zaman müasir dövlətimizin memarı və qurucusu, ölkəsinin müstəqilliyi, inkişafı naminə böyük və əvəzedilməz işlər görmüş, bununla bağlı tarixi proseslərə təsir göstərmiş dahi şəxsiyyət Heydər Əliyevi qürur hissi ilə xatırlayır. Ümummilli Lider Azərbaycan xalqının və dövlətinin taleyüklü problemlərini həll edən tarixi şəxsiyyət olmaqla yanaşı, həm də tarixi yaradan şəxsiyyətdir.

"Səs" Media qrupunun rəhbəri Bəhruz Quliyev Azərbaycan xalqının haqlı olaraq Heydər Əliyev irsini müstəqilliyin təminatçısı kimi qəbul etdiyini deyib. Onun sözlərinə görə, ölkəmizin inkişaf strategiyası məhz Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilib. Azərbaycanda Heydər Əliyev siyasətinin alternativi yoxdur: "Bugünkü Azərbaycan Heydər Əliyevin görmək istədiyi Azərbaycandır. O, Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə xalqımızın rifahını düşünərək bu ali amal uğrunda yorulmaz fəaliyyət göstərib,qəlblərdə daim sevgi, xatirələrdə əbədiyaşarlıq qazanmışdır".

Pirallahı rayon İcra Hakimiyyətinin başçısı Vasif İmanov vurğulayıb ki, müasir müstəqil Azərbaycanın memarı, Ümummilli Lider Heydər Əliyev tarix yaradan əvəzolunmaz şəxsiyyətdir. Görkəmli dövlət xadimi, dünya miqyaslı siyasətçi, Azərbaycan dövlətçiliyini bütün təhlükələrdən qoruyan və inkişaf etdirən qüdrətli şəxsiyyət Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi illər müasir tariximizin şərəfli dövrünü təşkil edir. Vasif İmanov Ulu Öndərin layiqli davamçısı olan Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində ölkəmizin yeni nailiyyətlər qazanaraq güclü və nüfuzlu dövlətlər sırasında öz mövqeyini daha da möhkəmləndirməsindən ətraflı bəhs edib. Sonda rayonun ictimai həyatında fərqlənən bir qrup şəxs fəxri fərman, partiya sıralarına yeni qoşulanlara üzvlük vəsiqələr təqdim edilib.



**Mətanət Məmmədova**

## İki hamilə qadın gördüm...

***Təsadüfə baxın ki, dünən həm səhər, həm də axşam hamilə qadınla rastlaşdım. Necə deyərlər, Allah hər ikisini dardan qurtarsın. Məni narahat edən başqa məsələdir ki, barəsində söhbət açmaq olduqca vacibdir. Bu, həmin iki qadının geyimi ilə bağlıdır.***

Əvvəllər hamilə qadınlar uşaq 2-3 ay olandan geniş paltarlara, həm də donlara üstünlük verərdilər ki, kənardan qarınlarının şişdiyi bilinməsin. Qadınlarımız var idi ki, 9 ay ata evinə getmir, qayınata, qayın, qardaş gözünə görünmürdü. Heyfi o dövrlərdən. Elə həmin iki hamilə qadına baxdıqca bu fikirlər keçirdi xəyalımdan. Həqiqətən abırlı-həyalı, ismətli dövrlər üçün minlərcə dəfə təəssüflər olsun.

Biz nə etdik ki, bu günlər nəsibimiz oldu? Bir qadın barı özünə hörmət etmir, heç olmasa bətnindəki körpəsinə hörmət etsin. Bu geyim-keçimlə hara gedirik? Hamiləliyimizi kimə nümayiş etdiririk?

Haradasa 8-9 aylıq hamilə olan qadınların hər ikisi dar şalvarda və köynəkdə idilər ki, qarınları tam şəkli ilə ortalıqda idi. Dərilərinə yapışan bu paltarlarda görəsən onlar necə rahatlıq tapa bilirlər? Bəs körpələri? Vallah körpələrə yazığım gəldi. Düşündüm, indi gör, onlar bu isti havada içəridə nə kimi mübarizə aparırlar ki, bu analardan xilas olub dünyaya sıçrasınlar.

Yaxşı, bunların özləri düşünmür, bəs böyükləri necə, yoxdur? Bir bunları başa salan yoxdur ki, birincisi, ayıbdır, ikincisi özün, üçüncüsü o körpən yazıqdır. Axı hər şeyin bir həddi olmalıdır. Nə üçün marşrutda, parkda hamı dönüb sənə baxmalıdır? Nə üçün səndən böyüklər həm sənin, həm də körpənin halına yanmalıdır? Sən bunu özün dərk etmirsən?..

Hara gedirik bu ədəb-ərkanla, geyim tərzi, davranışla, İlahi. Bəli, bir zamanlar yuxarıda da dediyim kimi, qadınlar hamiləlik dövründə gizlənirdi. Utanıb, abır-həya edirdilər. O qədər geniş paltar geyinirdilər ki, bəzən dünyaya uşaq gətirdiklərini eşidirdin, amma indiyədək hamilə olduqlarını düşünə bilmirdin. Uşaqlar da sağlam olurdular, təbii ki.

Lakin zəmanəmizdə elə mənzərələrlə qarşılaşırsan ki, deyirsən, gözlülər olsun, görməsin. İki hamilə qadın kimi. Bilmirəm, havadandır, sudandır, qidalardandır, yoxsa hansı səbəbdəndir, getdikcə təfəkkür xəstələrinə çevrilirik. Sanki korlaşır, düşüncəsizləşirik. Güzgüdə özümüzü ya görmür, ya da eyiblərimizə qarşı koruq. Əlimizə nə keçdi geyinib utanmadan küçəyə çıxırıq: dizdən, göbəkdən qarışlarla yuxarı ətək-köynək, cırıq-cırıq şalvarlar, ipli köynəklər...

Bu da hamilələrimiz. Paltarları o qədər dardır ki, bütün bədən şəkilləri çıxıb üzə. Təəssüf, həm də çox təəssüf. Təəssüf ki, bu cür küçəyə çıxmağı özümüzə rəva bilirik. Təəssüf ki, biz körpəmizin başına bu oyunları açırıq. Təəssüf ki, biz abır-həyanın nə olduğunu unuda-unuda yaşayırıq. Bəs axırımız?.. Bəlkə də elə axırımız bu gündür...

# İsrailin dənizdəki “Dəmir Qübbə”si



*Hərbçilər yeni dəniz əsaslı hava hücumundan müdafiə sisteminin uğurlu sınaqları barədə məlumat veriblər İsrail döyüş hazırlığını artırır. Bu həftə, eyni anda bir neçə istiqamətdə müharibənin aparılmasını sınaqdan keçirmək üçün təlimlərin başlanması ilə paralel olaraq, məşhur "Qübbə" hava hücumundan müdafiə sisteminin, dəniz versiyasının sınaqlarının uğurla başa çatması məlum oldu. Dəmir Qübbə” İsraili həm raket hücumlarından, həm də pilotsuz təyyarələrin hücumlarından qoruyur.*



Bazar ertəsi İsrail Müdafiə Qüvvələri ”Punch Fist” kod adlı iki həftəlik təlimə başladığını elan edib. Planlaşdırılır ki, bütün rayonların və ordunun qollarının İsrail hərbçiləri bir anda bir neçə istiqamətdə - quruda, havada, dənizdə, elektron sferada və kiberməkanda döyüş əməliyyatlarının aparılmasını işləyəcəklər. Təlimlərdə qərarların qəbulu və hərəkətlərin əlaqələndirilməsi sistemini işləyəcək hökumət və dövlət strukturları da iştirak edir. Söhbət təkcə müdafiədən deyil, həm də düşmən ərazisinin dərinliklərində strateji zərbələrin imitasiyasından gedir. Çoxdan planlaşdırılan məşqlər son dərəcə aktual olub.

Yalnız aprelin əvvəlində ölkə ərazisi demək olar ki, eyni vaxtda cənubda Qəzza zolağından, şimalda isə Livan və Suriyadan hücuma məruz qalıb. Bundan sonra jurnalistlər üçün keçirilən brifinqlərin birində İsrailin müdafiə naziri Yoav Qalant deyib: “Bu, məhdud münaqişələr dövrünün sonudur. Biz eyni zamanda bütün arenalar üçün real təhlükənin ola biləcəyi yeni təhlükəsizlik dövrü ilə üz-üzəyik”. O, həmçinin vurğulayıb ki, İsrail düşmənlərini bir araya gətirən və koordinasiya edən hərəkətverici qüvvə İrandır. “Biz İrana İran ordusunu Suriyada yerləşdirməyə icazə verməyəcəyik, Qolan təpələrinin Livana çevrilməsinə və Suriya ərazisinin Livana doğru irəliləyən qabaqcıl silahlar üçün tramplin olmasına icazə verməyəcəyik”, - deyə nazir bildirib.

Xatırladaq ki, İsrail və ABŞ İranın nüvə proqramının inkişafının qarşısını almaq üçün dəfələrlə İrana qarşı hərbi ssenarini müzakirə ediblər. Ötən il İsrail Hərbi Hava Qüvvələri Aralıq dənizi üzərində İranın nüvə obyektlərinə hücumu simulyasiya edərək təlimlər keçirib. Bu dəfə İsrailin 14-cü telekanalının ordu və təhlükəsizlik üzrə köşə yazarı Hillel Biton Rosen öz Twitter-də qeyd etdiyi kimi, Livan və İrana qarşı zərbələr hazırlamaq planlaşdırılır. İsrail müdafiədən hücuma keçir.

Hələlik İsrail ordusu ilk növbədə öz sərhədlərinə diqqət yetirib. Cənab Qalantın sözlərinə görə, dekabrın sonunda vəzifəyə başlayandan bəri İsrail iranpərəst qüvvələrin və onların hərbi obyektlərinin, o cümlədən Livan Hizbullah hərəkatının döyüşçülərinin yerləşdiyi Suriyaya hücumların sayını iki dəfə artırıb. Bu zərbələrin məqsədlərindən biri də, İsrail mediasının da qeyd etdiyi kimi, İran və Hizbullahın İsrailə hücum planlarını pozmaqdır. Elə keçən həftə İsrail Hərbi Hava Qüvvələri Livandan atılan pilotsuz uçan aparatı vurdu, aprelin əvvəlində isə Suriyadan uçan pilotsuz təyyarə ilə eyni şeyi etdilər. Və görünür, təsadüfi deyil ki, aprel ayında İsrailin Suriya ərazisinə endirdiyi zərbələrin sayı daha da artıb. Və bazar ertəsi gecəsi, demək olar ki, bir aylıq fasilədən sonra, israillilər yenidən Dəməşq bölgəsində Suriyaya hücum ediblər. Londonda yerləşən Suriyada İnsan Haqları Monitorinq Mərkəzinin məlumatına görə, bu hücumun hədəfi əvvəlkilər kimi Hizbullah hərbi obyektləri olub.

İsraillilər müdafiəni də unutmurlar. Bazar ertəsi İsrail Müdafiə Nazirliyi, ordu və Rafael konserni “Dəmir Günbəz”in dəniz versiyası olan və “Saar-6” korvetlərində yerləşdirilən “Defense Dome” hava hücumundan müdafiə sisteminin sınaqlarının uğurla başa çatması barədə məlumat yayıb. Yeni sistem ilk növbədə dənizdə qaz hasilatı platformalarını dronların, qanadlı raketlərin və raket artilleriya raketlərinin hücumlarından qorumaq üçün nəzərdə tutulub. Tərtibatçıların fikrincə, qoruyucu “Günbəz” öz lokatoru və sahil radar sistemlərinə arxalanaraq, hücum obyektinin lokallaşdırılmasında yüz faiz dəqiqliyi təmin edir. Mütəxəssislərin fikrincə, “Mühafizə Qübbəsi” İsrailin çoxsəviyyəli hava hücumundan müdafiə və raketdən müdafiə sistemində başqa səviyyədir. İsrailli hərbi ekspert David Gendelman bunun nədən ibarət olduğunu açıqlayıb: “Lightshield adlanan birinci səviyyə hələ də inkişaf mərhələsindədir. Bu, 7 km-ə qədər ultra qısa məsafələrdə hədəflərə, ilk növbədə minaatan mərmilərinə və qısa mənzilli raketlərə qarşı lazer sistemidir”.

İsraillilər İranda istənilən obyekti vurmağa hazır olduqlarını bəyan ediblər və Tehran buna cavab olaraq yeni raket nümayiş etdirib.

- ikinci səviyyəli ”Dəmir günbəz” 4-70 km arasında olan hədəflərə qarşı işləyir, bu yaxınlarda genişləndirilmişdir, lakin əsas vəzifəsi raketlərə, idarə olunmayan çoxsaylı reaktiv yaylım atəşinə və dronlara qarşıdır.

- üçüncü səviyyəli ”David's Sling” 300 km-ə qədər olan hədəflərə qarşı istifadə olunur. Bunlar ballistik və qanadlı raketlər, dronlar və təyyarələrdir. Eyni səviyyədə, Amerika Patriot hava hücumundan müdafiə / raketdən müdafiə sistemi fəaliyyət göstərir.

- dördüncü səviyyəli ”Hetz-2” 1,5 min km-ə qədər olan ballistik raketlərə qarşı istifadə olunur.

- ”Hetz-3” beşinci səviyyəsi - ekzoatmosferik tutma ilə 2,4 min km-dən çox uzun mənzilli ballistik raketlərə qarşıdır.

Hetz-4 də hazırda kosmosda çoxlu bölmələri olan uzaqmənzilli raketləri tutmaq üçün hazırlanır.

Eyni zamanda, buna baxmayaraq, İsrailin hava hücumundan müdafiə sistemində nasazlıqlar var. Onlardan biri İsrailin Qəzza zolağında “İslami Cihad” hərəkatına qarşı son hərbi əməliyyatı zamanı baş verib. Sonra Sderot və Rehovotun atəşə tutulması nəticəsində insanlar həlak olub, bir neçə nəfər yaralanıb. Bu düzəldilmiş ”texniki problem” idi. Orta hesabla “Dəmir günbəz”in effektivliyi 90%-i ötür. “Daha çox insan İsrailə raket hücumlarından danışır, lakin pilotsuz təyyarələr də Qəzzadan və şimaldan uçur. Belə ki, 2021-ci ildə “Divar Mühafizəsi” əməliyyatı zamanı Qəzzadan gələn pilotsuz təyyarələr “Dəmir Günbəz” tərəfindən ələ keçirilib”, - cənab Gendelman bildirib.

***Vəli Vəliyev***



İLHAM

# Tofiq Yaqubluya adam demək olarmı?

***Azərbaycanın işğal altında olan torpaqlarını azad etməsi və sürətlə o yerlərdə quruculuq, bərpa işlərini həyata keçirməsi bəzi anti-Azərbaycan dairələrini narahat etməyə başlayıb. Məkrli qüvvələr uğurlara kölgə salmaq üçün müxalif məxluqlardan, xüsusilə də Avropanın, ABŞ-ın qaranlıq dairələri tərəfindən maliyyəşən Əli Kərimli, Arif Hacıyev, Tofiq Yaqublu, İlqar Məmmədov, Cəmil Həsənli və digərlərindən alət olaraq istifadə edirlər. Dağıdıcı müxalifət məkrli ünsürlərin ayırdıqları maliyyə vəsaitinə şirnikərək insanları çaşdırmağa hesablanan açıqlamalarla çıxış edir, populist statuslar paylaşmaqla cəmiyyətin diqqətini özlərinə cəlb etməyə çalışırlar.***

Son günlər əl tulası kimi meydana buraxılan Müsavat partiyasının və “Milli Şura”nın üzvü Tofiq Yaqublu qüsurlu əqidəsinə, ləkəli məfkurəsinə uyğun olaraq ağzını açıb, gözünü yumub. İnternet TV-lərdə, sosial şəbəkələrdə Azərbaycanın milli və dövlətçilik maraqlarına qarşı sərsəm fiklirlər səsləndirir. Deyir ki, “ermənilərlə qardaş olmaq üçün gərəkdir ki, güzəştlərə gedilsin”. Həm də söyləyir ki, “polisdə saxlanılarkən onu döyüblər, türmədə olarkən ona qarşı zor tətbiq olunub”.

Məxluq necə sərt göstəriş alıbsa, Qənimət Zahidin təbliğat maşını olan TV-sinə verdiyi müsahibəsində Azərbaycan dövlətini işğalçı qüvvələrlə müqayisə edir. Bununla o, Azərbaycan xalqına və dövlətinə qarşı düşmən münasibətdə olduğunu açıq şəkildə nümayiş etdirir. Özünü azərbaycanlı adlandıran bir şəxs Azərbaycan dövlətini necə “işğalçı qüvvə” kimi təsvir edə bilər? Deməli, xəyanətkardır, satqındır.

Ümumiyyətlə, T.Yaqublunun qüsurlu tərcümeyi-halına nəzər yetirəndə aydın olur ki, satqınlıq onun xislətində var və bu titulu uzun illərdir ki, çiyinlərində gəzdirir. Son vaxtlar sərsəm açıqlamalar verməklə özünü daha da inkişaf etdirdiyini ağalarına göstərir. Bu yolla o həm ağalarından bir yağlı “malades” almağa çalışır, həm də Müsavat başqanı A.Hacılının xəstə olmasından istifadə edərək onun yerini mənimsəməyə ümid bəsləyir.

İnternet TV-yə müsahibəsində T.Yaqublu içkili vəziyyətdə olduğunu qırıq-qırıq, intonasiyasız fikirlər tələfüz etməklə göstərir. Məsələn, o Zəngəzur dəhlizi ideyasını “Azərbaycan dövlətinin avantürası” olduğunu bildirir. Birincisi, Zəngəzur Azərbaycanın milli məsələsidir, o torpaqlara mütləq qayıdış baş tutacaq. İkincisi, Zəngəzur dəhlizinin açılması Azərbayacan yeni siyasi-dipomatik qələbələr və iqtisadi imkanlar vəd edir. İçkili vəziyyətdə internet TV-yə çıxan T.Yaqublu Koçaryan, Sarkisyan, Arayik Artunyan və digər zibillər kimi danışır və Zəngəzur dəhlizinin açılması məsələsindən ciddi narahatlıq keçirdiyini nümayiş etdirir. Sual yarana bilər, niyə axı, o ki özünə azərbaycanlı deyir? Cavabı sadədir, Azərbaycana qarşı qərəzli mövqeləri ilə seçilən dairələrdən qrant qoparmaq üçün erməni lobbisi və revanşistlərlə eyni tezisləri səsləndirir.

Eyni zamanda sual oluna bilər, bu məxluq niyə bir dəfə də olsun Nijde Qaragenə heykəl qoyulmasına etiraz etməyib? Nədən Fransa prezidenti Makronun qondarma “erməni soyqırımı” barədə qərarına və Fransa parlamentinin Qarabağla bağlı separatçı qərarına etiraz etməyib? Çünki içinizdə milli hiss yoxdur, Azərbaycanın güclənməsindən, regionun qüdrətli dövlət olmasından narahatsınız. O ki qaldı polisdə döyülməyiniz barədə iddianıza və türmədə zorakılıqla üzləşməyiniz haqqında cəfəng uydurmanıza, təbii ki, hamısı absurddur.

Məsələ ilə bağlı Daxili İşlər Nazirliyinin sözçüsü mətbuata açıqlamasında bildirmişdir ki, Tofiq Yaqublunun polis bölməsində döyülməsi, xüsusi təzyiqə məruz qalması ilə bağlı iddialar əsassızdır: “T.Yaqublu polis bölməsinə gətirildiyini bildirərək özünü divarlara çırpıb, bəzən də əlləri ilə üzünə zərbələr vuraraq özünə xəsarət yetirməyə cəhd edib. Onunla profilaktik söhbətlər aparılıb. Tofiq Yaqublu isə karantin qaydalarını pozmadığını deyərək otaqda qəflətən bir neçə dəfə öz yumruqları ilə üz nahiyəsinə xəsarət yetirib. T.Yaqublu saat 17:45-də sərbəst şəkildə polis bölməsini tərk edərək gedib”.

Türmədə zorakılğa məruz qalması iddiasına gəlicə isə, doğrudan da T.Yaqublu qapalı həbsxanada zorakılığa məruz qalsaydı, o, bu gün danışmağa cəsarəti çatmazdı. Ən azı utanardı, xəcalət çəkərdi. Deməli, belə hal baş verməyib. Ümumiyyətlə, çərənləmək T.Yaqublu kimilərin alın yazısına, həyat fəlsəfəsinə çevrilib. Belələri siyasətdə var olduqca siyasətin müəyyən hissəsində çirkinlik mövcudluğunu saxlayacaq.

# Ermənistan regionun ekoloji mühiti üçün ciddi təhlükə mənbəyinə çevrilib



***Beynəlxalq təşkilatlar Azərbaycanla, Naxçıvan Muxtar Respublikası ilə həmsərhəd ərazisində - Yerasx (Arazdəyən) kəndində metallurgiya zavodu tikməyə hazırlaşan Hayastana ciddi təzyiqlər göstərərək bölgəni təhlükəyə sürükləyən bu prosesin qarşısını almalıdırlar***

Təcavüzkar Ermənistan 30 ilə yaxın müddətdə işğal altında saxladığı Azərbaycan ərazilərində ağlasığmaz ekoloji terror törədib. Bu müddətdə dinc insanların və təbiətin qənimi olan erməni işğalçıları tərəfindən Qarabağın flora və fauna aləminə, meşələrinə misli-bərabəri görünməmiş ziyan vurulub, kənd təsərrüfatı sistemi tam şəkildə yerlə-yeksan edilib. İşğal altında olan ərazilərdə iri heyvanlar minaya düşərək məhv olub. Bundan başqa, təmiz su mənbələrinin kimyəvi çirklənməsi nəticəsində çay və göllərdə özü-özünü tənzimləmə prosesi dayanmış, nəticədə su hövzələrinin bütün canlılar üçün zərərli, ölü bir zonaya çevrilməsi davam etmişdir. Hamımız yaxşı bilirik ki, Ermənistanın dağ-mədən sənayesi Azərbaycanın ekoloji mühitinə ciddi mənfi təsir göstərir. Ermənistanın iri mədən müəssisələri-Qacaran mis-molibden zavodu və Qafan filiz emalı kombinatının yüksək kimyəvi tərkibli istehsalat suları uzun müddətdir ki, transsərhəd Oxçuçayı intensiv şəkildə çirkləndirir. Yeri gəlmişkən, Almaniyanın "Cronimet" şirkəti bu ekoloji cinayətdə Hayastanla birgə iştirak edib. Təəssüflər olsun ki, bu günə qədər də Almaniya hökuməti bu istiqamətdə heç bir praktik addım atmayıb.

Ermənistan işğal etdiyi Azərbaycan ərazilərində 30 ilə yaxın həyata keçirdiyi ekoloji terroru bu gün də davam etdirir. Hayastanın Azərbaycanla, Naxçıvan Muxtar Respublikası ilə həmsərhəd ərazisində - Yerasx (Arazdəyən) kəndində 16 500 kvadratmetr sahədə illik istehsal gücü 180 000 ton, 70 milyon ABŞ dolları səramayə yatırılacaq iri metallurgiya zavodunun inşasının aparılması ilə bağlı bu ölkənin iqtisadiyyat naziri Vahan Kerobyan tərəfindən sosial media hesabında məlumatın, eləcə də bu faktı təsdiq edən videogörüntülərin yayılması bunun əyani təsdiqidir. Heç kimə sirr deyil ki, bu metallurgiya zavodunun zəhərli kimyəvi tullantıları bölgədəki ekosistemə böyük zərbə vura bilər. Onun tullantılarının Araz çayına axıdılması riski həm çaydakı canlı aləm, həm də Arazın suyundan suvarma üçün istifadə edilən geniş təsərrüfatlar üçün həyəcan siqnalıdır. Ermənistanın dağ-mədən sənayesində heç bir beynəlxalq standartlara əməl edilməməsi həm Azərbaycan, həm də ümumilikdə bölgə üçün ciddi ekoloji təhdid yaradır.

Şübhəsiz, Azərbaycan tərəfi ilə razılaşdırmadan sərhəddə belə bir müəssisənin tikintisi "Transsərhəd kontekstində ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" 1991-ci il Espo Konvensiyanın kobud şəkildə pozulmasıdır. Azərbaycan və Ermənistan həmin Konvensiyanın tərəfləridir və Espo Konvensiyasından irəli gələrək bu zavodun ətraf mühitə təsirinin qiymətləndirilməsi işi aparılmalı, tikinti ilə əlaqədar qiymətləndirmə sənədinə qonşu dövlət olan Azərbaycanın müvafiq qurumları baxmalı, eyni zamanda, bölgəyə yaxın yaşayan azərbaycanlıların rəyi nəzərə alınmalıdır.

Məsələ ilə bağlı iyunun 8-də Azərbaycanda fəaliyyət göstərən ekoloji yönümlü QHT-lər yeni ekoloji fəlakətə yol açacaq bu layihə əleyhinə birgə bəyanat yayıblar. QHT-lər başda BMT-nin Ətraf Mühit Proqramı, Ümumdünya Səhiyyə Təşkilatı, BMT-nin ətraf mühit üzrə xüsusi məruzəçisi, BMT-nin zərərli maddələr və insan hüquqları üzrə xüsusi məruzəçisi olmaqla, müvafiq beynəlxalq təşkilatlara müraciət edərək, onları bu fakta reaksiya





verməyə və Ermənistanın növbəti ekoloji terroruna son qoymağa çağırıb. Onlar, həmçinin Amerika Birləşmiş Ştatları hökumətinə müraciət ediblər ki, Arazdəyəndə iri metallurgiya zavodu tikməyə hazırlaşan, ərazisində qeydiyyatda olan şirkəti məsuliyyətli davranışa dəvət etsin, onun qanunsuzluqlarına göz yummasın.

Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Ermənistanın Azərbaycanla, Naxçıvan Muxtar Respublikası ilə həmsərhəd ərazisində iri metallurgiya zavodunun inşasının aparılması ilə bağlı bəyanatında bildirilir ki, Ermənistanın bu cür qanunsuz fəaliyyətləri təkcə Azərbaycanın deyil, ümumi regionun ekoloji mühiti üçün təhlükə mənbəyinə çevrilib.

Təbii ki, Ermənistanın Azərbaycanla, Naxçıvan Muxtar Respublikası ilə həmsərhəd ərazisində metallurgiya zavodunun inşası ilə bağlı layihəsi Hayastanın növbəti dəfə beynəlxalq hüquq norma və prinsiplərini, xüsusilə də BMT-nin Avropa İqtisadi Komissiyasının Transsərhəd kontekstdə ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında Konvensiyasının müddəalarını kobud surətdə pozması deməkdir. Buna görə də başda BMT olmaqla nüfuzlu beynəlxalq qurumlar, eləcə də ABŞ rəsmiləri, bu ölkənin Azərbaycan və Ermənistandakı səfirlikləri Hayastanın regionun ekoloji təhlükəsizliyinə ciddi zərbə vuran, beynəlxalq hüquq normalarına zidd olan əməllərinə yubanmadan münasibət bildirməli, bölgəni ekoloji təhlükəyə sürükləyən bu prosesin qarşısını almaq istiqamətində ciddi addımlar atmalıdırlar.



***Zahid Rza***

# “Ermənistan sülhə məcbur ediləcək"



KOMİTƏ SƏDRİ ŞƏRH ETDİ

“Son bir neçə həftə ərzində Vaşinqtonda, Brüsseldə, Moskvada və Kişinyovda keçirilən danışıqlar Azərbaycan-Ermənistan arasında münasibətlərin və mövqelərin anlaşılmasına imkanlar yaradır, tərəfləri sülh sazişinin imzalanmasına yaxınlaşdırır. Əgər Ermənistan siyasi iradə nümayiş etdirib xarici təsirlər buxovundan xilas ola bilərsə, o vaxt sülhün tənin olunmasına heç bir şübhə ola bilməz”. Bu sözləri SİA-ya verdiyi açıqlamasında Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, millət vəkili Tahir Rzayev deyib.

Komit sədrinin sözərinə görə, ancaq çox təəssüflər olsun ki, Nikol Paşinyan taleyüklü məsələlərin həllində, xüsusilə sülh sazişinin imzalanmasında qətiyyətli mövqe sərgiləmir və son məqamda xarici dövlətlərin, ona himayədarlıq edənlərin diktəsinə, fikirlərinə arxalanır.

“Bu gün Azərbaycan heç bir dövlətin daxili işlərinə qarışmır, separatizmi dəstəkləmir, milli azlıqların hüquqlarına hörmətlə yanaşır, başqalarının torpaqlarında gözü yoxdur və müstəqil siyasət yürüdür. Ermənistanda isə bunun tamamilə əksinədir. 44 günlük müharibədə ağır, sarsıdıcı zərbə almasına baxmayaraq Ermənistan dövləti, onun rəhbərləri, siyasi dairələri yenə də torpaq iddiasında, müharibə əhval-ruhiyyəsindədirlər. Onlar separatizmə və terrora dəstək verməklə, başda Fransa olmaqla bəzi dövlətlərin köməyinə arxalanmaqla, digərlərinin diktəsi ilə hərəkət etməklə müstəqilliklərini tamamilə güdaza vermişlər. Baş nazir Paşinyanın mövqeyi anlaşılan deyil və o, bir neçə dövlətdən asılı vəziyyətdədir. Çünki onu hakimiyyətə gətirən həmin dövlətlər qarşısında öhdəlikləri vardır və onların dediklərini etməlidir.

Bu sırada Azərbaycana, Türk dünyasına düşmən kəsilən Fransanın mövqeyi hər birimizə aydındır. İran da təcavüzkarlara öz dəstəyini əsirgəmir və əlaqələrin möhkəmləndirilməsi daha sürətlə davam edir. Qərbin təsiri, Rusiyanın mövqeyi Paşinyanı iflic vəziyyətinə salmışdır. Əlbəttə bu vəziyyət onun xəyanətkar əməllərindən, bir yox bir neçə dövlətə sığınmasından, ona uzun müddət arxa olanları satmasından, öz dostlarına arxa çevirməsindən qaynaqlanır. Ancaq Azərbaycanın dünyada artan nüfuzu, dövlətimizin rəhbəri cənab İlham Əliyevin düşünülmüş siyasi gedişləri Ermənistanı sülhə gəlməyə, götürdüyü öhdəlikləri, imzalanmış bəyanatlardan, danışıqlardan irəli gələn vəzifələri yerinə yetirməyə məcbur edəcəkdir”, deyə Tahir Rzayev bildirib.




***İnam Hacıyev***

# “Nar” yerli İT mütəxəssislərini yetişdirir




Ölkədə yerli İT mütəxəssislərini hazırlamaq məqsədilə, mobil operator “Nar” Azərbaycan Texniki Universitetində (AzTU) davamlı təlimlər həyata keçirir. Bu dəfə təlim AzTU nəzdində fəaliyyət göstərən “Nar” GSM laboratoriyasında keçirildi.

Xüsusi bilik və bacarıqları ilə seçilən tələbələr üçün nəzərdə tutulan təlimin mövzusu mobil rabitənin təminatı ilə yanaşı, 5-ci nəsil mobil texnologiya, əşyaların interneti, cihazlararası bağlantı və müasir rabitə texnologiyalarının tətbiq sahələrini əhatə edirdi. “Nar”ın peşəkar texniki heyəti tərəfindən hazırlanan təlimlərin məqsədi tələbələrin işi icraçılarından öyrənməsi və təcrübi biliklərin universitet tələbələri ilə paylaşılmasıdır. Eyni zamanda, tələbələr gələcək karyeraları haqqında bilmək istədiklərini “Nar” texniki heyətindən birbaşa öyrənmək imkanı əldə edir.

Qeyd edək ki, “Nar” və AzTU arasında əməkdaşlıq artıq 10-cu ildir ki, uğurla davam edir. 2013-cü ildə imzalanmış əməkdaşlıq memorandumu əsasında AzTU nəzdində “Nar” GSM laboratoriyası tələbələrin MoBIL rabitə cihazlarını universitetdə öyrənməklərinə imkan yaradır.

“Nar” həm texniki təchizat dəstəyi göstərərək, həm də təcrübi biliklərin paylaşılması vasitəsilə İT və texniki ixtisaslar üzrə təhsil alan tələbələrin Azərbaycan rabitə bazarında peşəkar kadr kimi hazırlanmasını hədəfləyir. “Nar” layihələri haqqında ətraflı məlumatı nar.az/projects səhifəsindən əldə edə bilərsiniz. Hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərən “Nar” son 4 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.



# “Zərərli vərdişlərə yox de, sağlam həyat tərzini seç!”



İyunun 9-da Yeni Azərbaycan Partiyası (YAP) Mərkəzi Aparatının, “Azərbaycan Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyətinin və Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun 2023-cü il üçün Tədbirlər Planına uyğun olaraq YAP Mərkəzi Aparatının və partiyanın Şamaxı rayon təşkilatının birgə təşkilatçılığı ilə “Zərərli vərdişlərə yox de, sağlam həyat tərzini seç!” mövzusunda tədbir keçirilib.

Tədbirdə Şamaxı, İsmayıllı, Ağsu və Qobustan rayonunu təmsil edən gənclər iştirak ediblər. Əvvəlcə iştirakçılar Nəsrəddin Tusi adına Şamaxı Astrofizika Rəsədxanasını ziyarət ediblər.



Sonra rəsədxananın iclas zalında keçirilən tədbiri giriş sözü ilə açan YAP Şamaxı rayon təşkilatının sədri Tural Qasımlı bildirib ki, narkomaniya ilə mübarizə hər bir sağlam cəmiyyətin formalaşması üçün zəruri şərtlərdəndir. Narkomaniya bəlası insan həyatında sağalmaz fəsadlar yaratdığı üçün gənclər bu bəladan uzaq olmalı, cəmiyyətin layiqli üzvü olmaq üçün sağlam həyat tərzini seçməlidirlər.

Çıxış edən YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsi müdirinin müavini Zəkiyyə Musayeva bildirib ki, narkomaniya ilə mübarizə və onun profilaktikası mühüm məsələ olmaqla yanaşı, sağlam gəncliyin yetişməsində ən vacib amillərdən biridir. Gənclərin zərərli vərdişlərdən uzaq olması üçün maarifləndirmə tədbirləri davamlı xarakter daşımalıdır.

Tədbirdə Şamaxı Rayon İcra Hakimiyyəti başçısının birinci müavini, RİH başçısı yanında fəaliyyət göstərən Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə Komissiyanın sədri Hikmət Şikarov, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun Milli İnformasiya sektorunun müdiri Raqif Allahverdiyev, Şamaxı rayon Polis şöbəsinin əməliyyat işləri üzrə rəis müavini, polkovnik-leytenant Səid Seyidov və “Azərbaycan Televiziya və Radio Verilişləri” Qapalı Səhmdar Cəmiyyətinin əməkdaşı Ruslan Həsənov müntəzəm olaraq maarifləndirici tədbirlərin keçirilməsinin vacibliyini vurğulayıblar. Çıxışlarda maarifləndirmə işlərinin narkomaniyaya qarşı mübarizədə ən güclü vasitə olduğu bildirilib, bu sahədə həyata keçirilən mübarizə tədbirləri ilə bağlı statistik məlumatlar təqdim edilib. Eyni zamanda, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən təsdiq olunmuş “Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı”nda məhz maarifləndirmə məsələlərinə xüsusi yer verildiyi diqqətə çatdırılıb. Sonda tədbir iştirakçılarının sualları cavablandırılıb.

# Kaxovka bəndinin partladılması regionda ekoloji fəlakət yaradıb



***15 aydılr ki, davam edən Rusiya- Ukrayna müharibəsi yeni dağıtılar, kütləvi şəkildə insan ölümləri yaradır. İyunun 6-da Ukrayna ərazisində daha bir faciə yaşandı, Avropanın ən böyük bəndlərindən olan Kaxovka su elektrik stansiyası partladılıb. Faciənin törədilməsinə görə, hər iki tərəf bir-birini günahlandırır. Əksər dünya ölkələri, o cümlədən Avropa İttifaqı Şurasının sədri Şarl Mişel partlayışa görə məsuliyyəti Rusiyanın daşıdığını bildirib. Məlumatlara əsasən, partlayış nəticəsində 10-a yaxın insan itkin düşüb, yüzlərlə insan yaralanıb, təbiətə görünməmiş ziyan dəyib, onlarla vəhşi heyvan məhv olub. Çoxsaylı yaşayış binası və sosial obyektlər su altında qalıb.***

Ukrayna Prezidenti Volodimir Zelenski Rusiyanı günahlandırıb və Nova Kaxovkadakı bəndin dağıdılmasından sonra 80 şəhər və kəndin su altında qala biləcəyini deyib.Dağılan bəndin üzərində olduğu Dnepr çayının aşağı axarında yerləşən Xerson şəhəri üçün bu daşqın fəlakətlə nəticələnə bilən risk hesab olunur.Rusiya nəzarəti altında olan bəndin dağıdılmasında rolunu inkar edib, əvəzində Ukraynanı atəş açaraq bəndi partlatmaqda günahlandırıb.




### Beynəlxalq ictimaiyyət Rusiyanı günahlandırır

BMT Təhlükəsizlik Şurası Ukraynanın tələbi ilə Kaxovka su elektrik stansiyasında baş vermiş partlayışla əlaqədar təcili iclasa toplaşıb. BMT baş katibinin humanitar məsələlər üzrə müavini Martin Qriffits iclasda deyib: "Bugünkü xəbərlər Ukraynada insanların vəziyyətinin daha da pisləşə biləcəyi deməkdir". M. Qriffits deyib ki, BMT hər an Rusiyanın nəzarətində olan ərazilərə çoxmüəssisə konvoyları və yardım personalı göndərməyə hazırdır. Rusiya və Ukrayna nümayəndələri bir-birini Kaxovka bəndini zədələməkdə ittiham ediblər. Stratpoints Fondunun hərbi eksperti, Polşa hərbi əkskəşfiyyatının keçmiş rəis müavini Maciej Matysiakın sözlərinə görə, Kaxovka su elektrik stansiyası bəndinin dağılması nəticəsində Rusiya qoşunları Ukraynanın gözlənilən əks-hücumuna qarşı müdafiə mövqelərini yaxşılaşdırıblar.Ekspert hesab edir ki, cəbhə xəttində yerləşən nəhəng bəndin dağıdılması nəticəsində yaranan daşqın Ukrayna silahlı qüvvələrinin bir aya qədər ərazidə tank və ya piyada döyüş maşınları kimi ağır silahlardan istifadə etməsinə mane olacaq."Hər zaman faydalananı axtarın. Hazırda qazanc Rusiya tərəfindədir, çünki Kaxovkada bəndin partlaması Ukrayna ordusundan hücum hərəkəti gözləyən ruslar üçün çox yaxşı müdafiə mövqeləri yaradır", - Maciej Matysiak deyib."Reuters"ə müsahibəsində analitik bildirib ki, Rusiya qoşunlarının daşqın səbəbindən ciddi təchizat problemi olmayacaq."Ruslar öz nəzarətlərində olan cənub dəhlizinə - Rusiya ilə Krım arasındakı quru dəhlizinə nəzarət edirlər, orada onlar xeyli ərazini işğal ediblər, həmin bölgədə çoxlu yollar, körpülər var. Ona görə də onlar üçün problem olmamalıdır", - Maciej Matysiak deyib. Ukrayna prezidenti Volodimir Zelenski çərşənbə axşamı çıxış edərək, bəndin dağıdılmasının Ukraynanın öz ərazisini azad etmək üçün əməliyyatını davam etdirməsinə təsir etmədiyini və Ukrayna Silahlı Qüvvələrinin hərbi komandanlığının hesabatlarından belə nəticə çıxardığını bildirib.Xerson vilayətinin cənubunda yerləşən, hazırda Rusiya işğalı altında olan Novaya Kaxovka şəhərində minlərlə ev su altında qala bilər.Ukraynanın Baş prokuroru Andrey Kostin bildirib ki, su elektrik stansiyasının bəndinin dağıdılmasından sonra su basmış ərazilərdən 17 mindən çox insan təxliyə edilir."40 mindən çox insan su basmış qalmaq təhlükəsi ilə üz-üzədir."

### NATO Rusiyadan qorxur, yoxsa ehtiyat edir?

"MDBMİ-nin Avropa hüququ kafedrasının dosenti, Avropa İnformasiya Mərkəzinin direktoru Nikolay Topornin NATO ölkələrinin Ukraynaya öz qoşunlarını göndərmək ehtimalı azdır". Bu fikirləri Alyansın keçmiş baş katibi Anders Foq Rasmussen deyib. NATO-nun keçmiş baş katibi qeyd edib ki, bu gün o, artıq bu təşkilatın rəsmi rəsmisi deyil, xüsusən də hansısa məxfi məlumatlara icazə verilir: "Çox güman ki, o, ictimai məkanda olan, ekspertlərin, ayrı-ayrı hərbi mütəxəssislərin, jurnalistlərin ifadə etdiyi məlumatlarla işləyir. Üstəlik, Polşa ordusunun mümkün yerləşdirilməsi ilə bağlı bu məlumat yeni məlumat deyil, artıq yayılıb".

Eyni zamanda, Nikolay Topornin hesab edir ki, Ukrayna özü üçün Şimali Atlantika Alyansından zəmanət tələb edəcək: "Onlara daha ciddi siyasi xətt lazımdır ki, kiməsə arxalansınlar və Rusiya ilə tək qalmasınlar, çünki bu qorxu və fobiyalar qalacaq. Öz növbəsində, onlar NATO-ya qəbul edilməsələr, çoxtərəfli formata qoşulmaqda israrlı olacaqlar. Onlara gələcəkdə belə bir qarşıdurmanın olmayacağına əminlik yarada biləcək bir şey lazımdır. Bunun üçün Qərb dövlətlərindən o qədər hərtərəfli təminat vermələrini istəyirlər ki, əgər belə bir şey olarsa, o zaman Qərb ölkələri və onların hərbi potensialı avtomatik olaraq köməyə gələcək. Onlar bu məsələnin üzərində işləyəcəklər və israrlı olacaqlar".

Bundan əvvəl NATO-nun keçmiş baş katibi Andres Foq Rasmussen açıqlama etmişdi ki, blokun qoşunları Moskva ilə Kiyev arasında münaqişədə birbaşa iştirak edə bilər. Onun sözlərinə görə, alyansa üzv dövlətlər Ukrayna ərazisinə öz qüvvələrini göndərə bilər, əgər ölkə təhlükəsizlik zəmanəti almaz. Onun fikrincə, Ukraynaya kömək etmək istəyənlər sırasında Polşa və Baltikyanı ölkələr də var.

Ukraynada ekoloji fəlakətin baş verdiyi və müharibənin getdikcə daha amnsız xarakter aldığı bir vaxtda ABŞ dövlət katibi Antoni Blinken yenidən açıqlama ilə çıxış edərək ABŞ öz müttəfiqləri və tərəfdaşları ilə Kiyev administrasiyasını dəstəklədiyini bildirib: "Bu gün Rusiya hərbi, iqti¬sadi və geosiyasi baxımdan Ukraynanı işğal etməzdən əvvəl olduğundan daha pis vəziyyətdədir. Bu, bizim və tərəfdaş¬larımızın şüurlu və qətiyyətlə qəbul etdiyi qərarların və Ukrayna xalqının cəsarəti və həmrəyliyinin nəticəsidir. Kreml tez-tez iddia edirdi ki, Rusiya ordusu dünya¬da ikincidir. Çoxları buna inanırdı. Bu gün tamamilə fərqli vəziyyət yaranıb. Texni¬kası, texnologiyası, rəhbərliyi, strategiya¬sı, taktikası və əsgərlərinin mənəviyyatı¬na görə indi biz görürük ki, o, Ukraynada belə ikincidir".

**İ.ƏLİYEV**

# "İrəvan sülh müqaviləsinin imzalanmasına hazır deyil"



"Münaqişəli tərəflər arasında delimitasiya və demarkasiya məsələlərində yekun razılığa gəlmədən, kommunikasiya xətlərinin fəaliyyətə başladılması kontekstində Ermənistanın razılığını almadan sülh müqaviləsinin imzalanması mümkün deyil. Əgər bu məsələlər həll olunmadan sülh müqaviləsi imzalansa belə, münasibətlərdəki gərginlik qalacaq". Bunu "Səs" qəzetinə açıqlamasında politoloq Elşən Manafov deyib.

Onun sözlərinə görə, Avrasiya İqtisadi Birliyinin Moskvada keçirilən iclasında Ermənistanın baş naziri Nikol Paşinyanın üçtərəfli Moskva bəyanatına istinad edərək sülh razılaşması ilə bağlı heç bir müddəanın olmadığını bildirməsi diqqətçəkən məqamlardan biri idi: "Bu, İrəvanın məsələ ilə bağlı mövqeyinin nümayişi idi. İrəvan manipulyasiya edir, erməni və beynəlxalq ictimai rəyi azdırmaq və özünə lazım olan informasiyanı beynəlxalq şəbəkə məkanına çıxarmaq istəyir. İrəvan sülh müqaviləsinin imzalanmasına hazır deyil. Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü Qarabağ da daxil olmaqla, tanıması isə heç də sülhə razı olduğunun göstəricisi deyil. Qərbin Ermənistanla Azərbaycan arasında sülhün əldə edilməsində maraqlarının olduğu mahiyyətinə varmaq lazımdır. Kreml vasitəçiliyi ilə aparılan danışıqlarda, ilk olaraq, bölgədə kommunikasiya və delimitasiya-demarkasiya məsələlərinin gündəm mövzusu olduğu diqqətçəkən məqamdır. İlk olaraq, bu məsələlər ətrafında razılıqların əldə olunmasının vacibliyi vurğulanır. Bu mövqenin daha doğru olduğunu etiraf etmək lazımdır".

E.Manafov onu da bildirdi ki, Azərbaycanla Ermənistan arasında delimitasiya və demarkasiya məsələlərində yekun razılığa gəlmədən, kommunikasiya xətlərinin fəaliyyətə başladılması kontekstində Ermənistanın razılığını almadan sülh müqaviləsinin imzalanması mümkün deyil: "Əgər bu məsələlər həll olunmadan sülh müqaviləsi imzalansa belə, münasibətlərdəki gərginlik qalacaq. Sülh müqaviləsinin əldə olunmasına gedən yol kommunikasiya xətlərinin açılmasından, sərhədlərin demarkasiya edilməsindən, qarşılıqlı olaraq hərbi əsirlərin dəyişdirilməsindən keçir. Bunlar olmadan məsələnin həlli istiqamətində hər hansı uğur əldə etmək mümkün deyil. ABŞ-nin Cənubi Qafqazda sülh yaratmaq siyasətini gil ayağında gedən nəhəng hesab edirəm. Qərbin əsas məqsədi Rusiyanın Cənubi Qafqaz regionuna təsir imkanlarını azaltmaq, dünya və Azərbaycan ictimaiyyətinə onun haqqında təhrif olunmuş informasiyaları verməkdən ibarətdir".

**GÜLYANƏ**

# “Azərbaycanın Avrasiya İqtisadi İttifaqına inteqrasiyası düzgün addımdır”

## *Rusiyalı politoloq Azərbaycan-AİI yaxınlaşması ilə bağlı: Siz son geosiyasi vəziyyətdə Azərbaycan kimi davranmaq üçün siyasi dahi olmaq lazımdır*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi” istiqaməti çərçivəsində hazırlanıb.*

***Azərbaycan Avrasiya İqtisadi İttifaqına vektor götürür. Moskva uzun müddətdir ki, Bakını struktura dəvət edir. Azərbaycan tərəfi diqqətlə araşdırdı, çünki əksər hallarda bu cür iqtisadi inteqrasiyaya, eləcə də hər hansı digər struktur çərçivəsində inteqrasiyaya şübhə ilə yanaşırdı. Rəsmi Bakı həmişə belə strukturlardan kənarda durmağa çalışıb və AİI-də iştirak etməsə də, MDB-dəki qonşuları ilə əla münasibətlərə malik olduğunu həmişə vurğulayır.***





Azərbaycan üçün mənfi və eyni zamanda çəkindirici faktor Ermənistanın təşkilatda olması idi. Bununla belə, yeni zaman yeni tendensiyalar və yeni reallıqlar doğurur. İkinci Qarabağ müharibəsi, Bakının fikrincə, Ermənistan və Azərbaycan arasında Qarabağ münaqişəsinin sona çatmasına gətirib çıxardı ki, bu da Azərbaycana regional və beynəlxalq statusun tamamilə yeni səviyyəsinə qalxmağa imkan verdi. Bundan əlavə, münaqişənin “bağlanması” ilə Azərbaycan, Rusiya və regionun digər ölkələri üçün yeni iqtisadi imkanlar yarandı. Rusiya ilə Qərb arasında iki il əvvəl yenidən alovlanan münaqişə həm Azərbaycana, həm də Rusiyaya yeni reallıqlar təklif etdi. Rusiya hakimiyyətinin nümayəndələri bir neçə il əvvəl Rusiya liderinin elan etdiyi Böyük Avrasiya Tərəfdaşlığı ideyasına qayıdaraq, getdikcə AİI və Azərbaycan arasında ciddi qarşılıqlı fəaliyyət potensialından danışmağa başladılar. Bunun nəticəsidir ki, ötən ilin avqustunda tarixdə ilk dəfə olaraq Azərbaycanın baş naziri rusiyalı həmkarı Mixail Mişustinin dəvəti ilə Avrasiya Hökumətlərarası Şurasının iclasında iştirak edib.

Bu il mayın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Bakıda keçirilən görüşdə Avrasiya İqtisadi Komissiyasının İdarə Heyətinin sədri Mixail Myasnikoviç AİI ilə Azərbaycan arasında əməkdaşlıq mövzusunu qaldırıb. Myasnikoviç Azərbaycan rəhbərinə Avrasiya İqtisadi İttifaqı ilə əməkdaşlıq təkliflərini təqdim edib.

Artıq mayın 25-də Azərbaycan Prezidenti İlham Əliyev Rusiya lideri Vladimir Putinin dəvəti ilə tarixdə ilk dəfə Kremldə Ali Avrasiya İqtisadi Şurasının iclasında iştirak edib. Putin Əliyevə görüşdə iştirak etdiyinə görə təşəkkür edib və Azərbaycanın təşkilata üzv ölkələrlə əlaqələrinin daim inkişaf etdiyini və təşkilatın hər bir ölkəsi üçün vacib olduğunu vurğulayıb.

İyunun 8-də Azərbaycanın Baş naziri Əli Əsədov Avrasiya Hökumətlərarası Şurasının Soçidə 2-ci iclasında iştirak edib, həmçinin burada Avrasiya Konqresində iştirak edəcək.

Avrasiya Hökumətlərarası Şurasının iclasında çıxış edən O. Əsədov bildirib ki, Avrasiya İqtisadi İttifaqındakı tərəfdaşlarla ikitərəfli və çoxtərəfli əməkdaşlığın inkişafı Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindən biridir. O, Azərbaycan Respublikasının nəqliyyat və logistika imkanlarını Avrasiya İqtisadi İttifaqındakı tərəfdaşlara təklif edib.

Azərbaycan niyə AİI ilə yaxınlaşmağa başladı? Politoloq, Rusiya Federasiyası Hökuməti yanında Maliyyə Universitetinin filialının direktoru Pavel Klaçkov “Moskva-Baku” portalına şərh edib. Ekspertin şərhini oxucularımıza təqdim edirik.

- Azərbaycanın Avrasiya İqtisadi İttifaqı ilə yaxınlaşmağa başlamasına nə təkan verdi? İki amilin unikal birləşməsi. Əhəmiyyətinə görə birincisi Azərbaycan rəhbərliyinin müdrikliyidir ki, mən ona heyran olmaqdan çəkinmirəm: İlham Əliyev və onun komandası xarici siyasəti necə uğurla və balanslı apara bilirlər. Beynəlxalq arenada siyasi “canavarlar”ın, fövqəldövlətlərin şiddətli döyüşdə toqquşduğu və bu döyüş getdikcə böyüdüyü vaxtda kiçik bir ölkənin gəmisini idarə etmək və bütün fırtınalara qalib gəlməklə müstəqil olaraq qalmaq, hətta hər şey dağılanda qalib gəlməkbunun üçün siyasi dahi olmaq lazımdır. Və Azərbaycan dövləti və onun rəhbərliyi siyasi dahi olmağı bacarır. Azərbaycan hakimiyyəti gələcək üçün zamanın nəbzini və meyllərini hiss edir. Və bunun əsasında strateji və düzgün qərarlar qəbul edirlər. Yeri gəlmişkən, gördüyümüz kimi, getdikcə Rusiyadan uzaqlaşdığını daha çox nümayiş etdirən Ermənistandan fərqli olaraq.

Bu gün qlobal geosiyasi dəyişikliklər nümayiş etdirdi ki, sırf Qərbə, onun layihələrində iştiraka arxalananlar yalnız uduzacaqlar, bu, artıq ciddi faktdır.

Bu gün Çin ciddi şəkildə özünü təsdiq edir, Rusiya təslim olmur: biz bir neçə ildir ki, ən ağır sanksiyalar altındayıq, indi də Qərblə silahlı qarşıdurmadayıq, buna baxmayaraq, Rusiya tab gətirdi, Rusiya inkişaf edir. Bu isə onu deməyə əsas verir ki, Qərb çoxdan o qədər də güclü olmayıb. Bu gün tam olaraq anti-Qərb deyil, daha çox qeyri-Qərb xarakterli layihələr yenilənir. Və ümid verənlər də onlardır. Bunu Latın Amerikası, Asiya, Afrika liderləri, Qərbin bəzi liderləri başa düşürlər. Bunu Azərbaycan Prezidenti İlham Əliyev də anlayır.

Və burada Azərbaycanın AİI-yə doğru hərəkətində ikinci mühüm amillə əlaqə yaranır. Bu, dəyişmiş, yönləndirilmiş və yeni, real prioritetlər tapmış Moskvanın siyasətidir. Yaxın vaxtlara qədər, o cümlədən Rusiyanın aparıcı dairələrində Qərblə əməkdaşlığa, enerji resurslarının məhz oradan tədarükünə yönəlmiş güclü blok var idi, hesab olunurdu ki, bunun ardınca zənginləşmə olacaq və s. Amma reallıq belədir: hər şey, bütün bu qərbyönlü mahnılar bitdi, qısa müddətdə heç bir barışıq ola bilməz. Və Moskva yenidən Avrasiyaya üz tutur. İndi rus diplomatiyası bu vektorlarda əvvəlkindən daha fəaldır, dost ölkələrlə, Anglo-Sakson Qərbinin nəzarəti altında olmayan ölkələrlə qarşılıqlı əlaqədədir. Yalnız bu gün ABŞ-a tam tabe olanlar istisnadır. Əslində, onlar müstəmləkə ölkələrdir. Azərbaycan onlara aid deyil. Və o, hazırda onun üçün ən perspektivli olan istiqamətdə ehtiyatlı, lakin məqsədyönlü hərəkət edəcək. Bu da Avrasiya istiqamətidir.

Prinsipcə, Azərbaycanın uğurla sədrlik etdiyi Qoşulmama Hərəkatının eyni məntiqi bugünkü proseslərə uyğundur. Ona görə də Azərbaycanın AİI ilə yaxınlaşması prosesi başlayıb, demək olar ki, Azərbaycan buna cavab verib və şərait o qədər obyektiv inkişaf edib ki, indiki beynəlxalq şəraitdə milli maraqları daim diqqət mərkəzində saxlayan Bakı maraqlı olub və ona cavab verib.

Üstəlik, MDB, AİI, hətta KTMT dövlətləri mahiyyətcə eyni ölkələrdir, qonşudurlar. İlham Əliyevin Ali Avrasiya İqtisadi Şurasının Kremldəki iclasında deyildiyi kimi (bu, çox vacibdir) mən bura qonaq kimi dəvət olunmuşam, amma özümü qonaq hesab etmirəm. Çünki Azərbaycan Ermənistan istisna olmaqla, AİI-nin bütün dövlətləri ilə çoxdan və sıx əməkdaşlıq edib. Amma o, həm də müntəzəm olaraq Ermənistana işarə edir ki, sülhə hazırdır, gəlin əməkdaşlıq edək. Və Nikol Paşinyanın Azərbaycanın mütəmadi olaraq AİI tədbirlərində iştirakına razılıq verməsi də, hesab edirəm ki, maraqlı siqnaldır. Çünki Azərbaycan indi mütləq bunlarda daimi iştirak edəcək. Bu mütləqdir. Əməkdaşlıq yalnız inkişaf edəcək, qarşılıqlı faydalı qarşılıqlı fəaliyyətin müxtəlif formaları olacaq.

Və mahiyyətcə AİI üçün yeni səhifə açılır. Azərbaycanın baş naziri bəyan edib ki, Azərbaycanın nəqliyyat və logistika qovşağı kimi statusu artır və AİI dövlətləri bu potensialdan yararlana bilərlər (bu həm də o demək idi ki, Ermənistanla münaqişə nəhayət həll olunarsa, o, həm də bu potensialdan istifadə edə biləcək).

Rusiya Azərbaycanla AİI çərçivəsində qarşılıqlı fəaliyyətdə çox maraqlıdır. Avrasiya məkanında bir çox proseslər paralel gedir. Belarus prezidenti Aleksandr Lukaşenko Minskdə MDB Təhlükəsizlik Şuralarının rəhbərləri ilə görüşündə bir daha bildirib ki, MDB məkanında münaqişələri, xüsusən də Azərbaycanla Ermənistan arasında münaqişəni nəhayət həll etmək lazımdır. Rusiyanın Şərqi Avropadakı hazırkı münaqişəsi kifayət qədərdir.

Əbəs yerə deyil ki, Rusiya Federasiyası, Azərbaycan və Ermənistan liderlərinin 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatına əsaslanaraq, Ermənistan-Azərbaycan nizamlanmasında iqtisadi amili birinci yerə qoyub və bu, Bakı ilə İrəvan arasında nəqliyyat və iqtisadi əlaqələrə blokun açılmasıdır. Bu gün o, çox perspektivli strateji layihə kimi qiymətləndirilir. Xüsusən də, Rusiya üçün əsas nəqliyyat dəhlizlərindən biri olan, Azərbaycan və İrandan keçəcək “Şimal-Cənub” nəqliyyat dəhlizi.

Bildiyimiz kimi, mayın 25-də Moskvada Vladimir Putin, İlham Əliyev və Nikol Paşinyan arasında keçirilən üçtərəfli görüşdən sonra liderlər Azərbaycanın qərb rayonlarından, Ermənistan ərazisindən və Naxçıvandan keçən dəmir yolu layihəsinin həyata keçirilməsi üçün konkret addımlar barədə razılığa gəliblər. Azərbaycan Türkiyə, İran və Ermənistanla sərhəddə yerləşən yeni strateji nəqliyyat və enerji qovşağının-Naxçıvanın inkişafına başlayıb. Başqa heç nə alternativ ola bilməz, yalnız bu yolla. Azərbaycan rəhbərliyi isə bunu çox gözəl anlayır.




Azərbaycanın siyasəti aşkar və şəffaf, konstruktiv və ağıllıdır: bu, öz ətrafında təhlükəsizlik, sülh və konstruktiv qarşılıqlı fəaliyyət məkanı yaratmaq işidir.

Azərbaycan xalqının mentaliteti müharibə həvəsi ilə xarakterizə olunmur. Gördüyümüz kimi, azərbaycanlılar öz təhlükəsizliyini, maraqlarını döyüş meydanında müdafiə edə bilirlər. Lakin İkinci Qarabağ Müharibəsi məsələsində bu, özlüyündə son deyil, beynəlxalq strukturların onilliklər ərzində fəaliyyətsizliyindən sonra məcburi tədbir idi.

Ermənistan-Azərbaycan münaqişəsinin Cənubi Qafqazda davam etməsi yalnız qeyri-regional oyunçuların, eyni ABŞ-ın xeyrinədir.

İndi məlumat var ki, Azərbaycan Vaşinqtonda danışıqların tarixini təxirə salıb. Beləliklə, bir şey düzgün deyil. Əminəm ki, Avrasiya məkanındakı ölkələrimiz öz maraqlarını müdafiə etməlidir, o cümlədən Ermənistan-Azərbaycan prosesi məsələsində. Anqlosakson kuklaları qarışmasa, onda hər şey yaxşı olacaq.

Biz Azərbaycanın Cənubi Qafqazda vəziyyəti sabitləşdirmək, sakitləşdirmək, daha çox təhlükəsizliyi təmin etmək yolunda sağlam düşüncəli addımlarını görürük. Şübhə yoxdur ki, regionun bütün dövlətlərinə fayda gətirə biləcək perspektivli yol məhz bu istiqamətdədir. Nəqliyyat dəhlizləri işə başlayacaq, qovşaqlar inkişaf edəcək, beynəlxalq ticarət başlayacaq- bütün region ölkələri bu addımlardan faydalanacaq. Yalnız digər regionlardakı rəqiblər buna qarşı çıxa bilər.

***Tərcümə - Elçin Bayramlı***

SON SƏHİFƏ
SƏS
10 iyun
2023-cü il

# Universitetlər tələbələri niyə təcrübəsiz yola salır?

***İş həyatında hamımız ən azı bir dəfə rədd cavabı almışıq. Bu, sirr deyil ki, günümüzdə bir çox insan təcrübəsiz olduğu üçün işə qəbul olunmur. Bəs, buna səbəb nədir? Axı, təcrübə toplamaq üçün də haradansa başlamaq lazımdır. SİA mövzu ilə bağlı araşdırma aparıb.***





ARAŞDIRMA

Daha çox universitetdən yeni məzun olan gənclərin ən çox qarşılaşdığı problemlərdən biri də sırf budur. Məlumdur ki, əksər tələbələr təhsil aldığı müddət ərzində heç bir yerdə çalışmır. Təəssüflər olsun ki, əksər universitetlərin də hazır kadr məzun etdiyini söyləmək olmaz. Demək olar ki, 99 faiz iş yeri də yalnız və yalnız təcrübəli kadr axtarışındadır. Lakin heç kim bu təcrübəni gənclərə vermək istəmir.

Araşdırmalar göstərir ki, təcrübəsiz insanlar həmişə daha cəsarətli və maraqlanan olurlar. Çünki təcrübəsi olmayan insan heç vaxt karyerasını və populyarlığını itirməkdən qorxmaz. Ona görə də o, həmişə araşdırmaçı və döyüşkən xarakter daşıyır. O, həmişə sual verir, risk alır və heç vaxt təslim olmur.

Ən böyük vəzifə əslində işəgötürənlərin, HR menecerlərinin və şöbə rəhbərlərinin üzərinə düşür. Təcrübəsiz işçilərə tapşırıq verməkdən heç vaxt çəkinməyin və hətta işçilərinizin performansını onlara çox daha çətin layihələr verərək artıra bilərsiniz. Təcrübəsiz heyətiniz bu çətin vəzifəni uğurla yerinə yetirdikdə, layihənin əslində nə qədər dəyərli olduğunu müşahidə edəcəksiniz.

Heç bir uğur eyni təcrübə ilə təmin edilə bilməz. Dəyişiklik həmişə lazımdır. Bu səbəbdən təcrübəsiz olmaq pis bir şey deyil. Çünki təcrübəsiz insanlar səhv etməkdən qorxmur və onların qərar vermə prosesləri daha sürətli olur.

Bir gənc üçün öz ixtisası üzrə iş təcrübəsinə sahib olmaq çox mühüm bir amildir. Bu səbəbdən maksimum dərəcədə tələbəlik dönəmində özünüzə uyğun iş yerində çalışmaq üçün addım atın. Unutmayın ki, hamı ilk başda təcrübəsiz olur. İlk çalışdığınız yerdə də özgüvənli, məsuliyyətli və operativ görünməyi diqqətdə saxlayın. Bəlkə də ilk başladıqda həmin iş yeri sizi işə götürəcəyinə söz vermir. Amma sizin əzminizi və çalışqanlığınızı gördükdən sonra da sizi əldən vermək onlar üçün o qədər asan olmayacaq.

Yeniliklərə daim açıq olun. Adətən əksər iş yerləri cavan kadrları müəssisəsinə yenilik gətirsin deyə istəyir. Öyrənməkdən və sual verməkdən çəkinməyin. Xarici dil bilmək isə sizin üçün üstünlük olacaq. Bu, sizi digər işçilərdən fərqləndirən amillərdən biridir.

Fəlsəfə üzrə fəlsəfə doktoru Mail Yaqub: ”Təbii ki, təcrübə hər bir işçi üçün lazım olan şərtlərdən biridir. Amma məntiqlə düşünsək, ali təhsilini yenicə bitirmiş, yaxud da ümumiyyətlə heç ali təhsili və iş təcrübəsi də yoxdur, amma müəyyən bilgiləri var, kurslarda iştirak edib, təlimlərə qatılıb, özündə müəyyən bacarıqları formalaşdırıb indi işə düzəlmək istəyir. Bu insanın iş təcrübəsi yoxdur. Əgər belə olsa, onda gərək yenicə işə başlayan insanların heç biri gərək işə götürülməsin. Bu, absurd və mənasız yanaşmadır. İş təcrübəsi lazımdır, amma iş təcrübəsi formalaşmaq üçün həmin şəxs gəlib işləməlidir.

Mənə görə hər bir işçidən müsahibə götürərkən həmin işçinin savadına, bilgisinə və yumşaq bacarıqlarına diqqət ayırmaq lazımdır. Biz bunu şirkətlərə tədris edirik. Yumşaq bacarıqlar bilgi və savaddan fərqli bir sferanı əhatə edir. Dürüst olmaq, ünsiyyət bacarıqlarına sahib olmaq və özgüvənli olmağa bunlara yumşaq bacarıqlar deyirlər. Təxminən 30-40 bacarıqdır. Bunlar əsas şərtdir.

İndi təbii olaraq biz işçini təzə işə götürəndə heç həmin şəxsdə yumşaq bacarıqların olub-olmadığını da tam ayırd edə bilmirik. Bəzən müsahibədə də bu özünü göstərmir. Amma hər bir halda müəyyən qədər əgər müsahibə götürən insanda psixoloji bacarıqlar varsa, bunu oxuya bilər. Həmin insanın danışıq tərzindən, suallara cavab vermək tərzindən bunu ayırd etmək müəyyən qədər olur. Əsas savad və yumşaq bacarıqlardır. Təcrübə təbii ki, işə götürüləndən sonra tədricən formalaşacaq. Mən bu cür yanaşmanı tamamilə absurd və mənasız hesab edirəm.

Şirkətlərə tövsiyə edirəm ki, əsas dediyim kimi müsahibə götürərkən, işə götürərkən işçinin həmin sahədə olan biliyinə, bir də yumşaq bacarıqlarına diqqət etsinlər. İndi deyilə bilər ki, ”Bilik də təcrübəylə hasil olur”. Təbii ki, bu belə deyil. Bilik təkcə təcrübə ilə deyil. Bilik həm də kitab oxumaqladır. Ola bilər bir şəxs həmin sahədə yaxşı əsərlər, kitablar oxuyub, təlimlər alıb, kurslara gedib. Amma hələ təcrübəsi yoxdur. Eybi yox, o işə götürülsün və şərait yaradılsın. Unutmayın ki, o gəncdir və qoyun özünü tutsun, formalaşsın. Yumşaq bacarıqlara diqqət ayırılsa, tədricən o təcrübə də formalaşacaq”.

***Ayşən Vəli***

# İnsan duyğularını necə idarə edir?

**PSİXOLOQ DANIŞDI**



***“Əslində həyatımızda baş verən bir çox şeylər əhəmiyyətli dərəcədə duyğularımıza təsir edir. İnsan sosial varlıq olsa da, hər şeydən öncə bioloji, duyğusal varlıqdır və duyğuları, düşüncələri var. Duyğu, düşüncə və davranışımız bir-biri ilə əlaqəlidir, harmoniya təşkil edir. Buna bəzən “3D model” də deyirlər”. Bu sözləri SİA-ya açıqlamasında Amerika Beynəlxalq Nevrorequlyasiya və tədqiqatlar Dərnəyinin rəsmi Azərbaycan təmsilçisi, Psixologiya Elmi-Tədqiqat İnstitutunun elmi işçisi, uzman-klinik psixoloq Narınc Rüstəmova deyib.***

Onun sözlərinə görə, duyğularımız düşüncələrimizi formalaşdırır, düşüncələrimiz isə öz növbəsində davranışlarımıza birbaşa təsir edir: “Bir insanın davranışını analiz edərək, əslində müəyyən dərəcədə də olsa onun duyğularını bilmək olar. Bütün bunlar da öz təsirini gündəlik yaşamımızda, həyatımızda göstərir. Burada duyğularımızla, davranışlarımızla barışıq şəkildə olmağımız önəmlidir, çünki davranışlarımızın da qaynağı duyğularımızdır.

Məsələn, aqressiv davranış sərgiləyən, ailə üzvləri ilə yaxşı münasibəti olmayan yeniyetmənin davranışını analiz etsək görərik ki, ailəsi ilə pisdir, hər xırda bir şeydə əsəbiləşir, ana-atası ilə davamlı fikir ayrılığı yaşayır. O düşünür ki, “valideynlərim məni başa düşmür”, “anam məni keçmiş zamanı ilə müqayisə edir” və s. Həmin yeniyetmənin duyğularına enib, analiz etsək onun dəyərsizlik duyğusu yaşadığını görə bilərik. Bu da kiçik yaşlardan davamlı müqayisə olunan uşaqlarda daha çox özünü göstərəir və zamanla duyğularına da yansıyır. Belə olduqda, yəni onlar özlərini dəyərsiz hiss etdikdə ətrafına qarşı aqressiv davranışlar sərgiləyir.

Əsas məqamlardan biri də insanların duyğularını kontrol edə bilməsidir. Bunu edə bilən, yəni sağlam şəkildə duyğularını idarə edən, hər zaman hisslərinə qapılmayan insanlar öz qorxu və travmalarını da müəyyən mənada korreksiya edə bilər. Ona görə də mən hər zaman qeyd edirəm ki, insanın necə davrandığından daha çox nə hiss etdiyini, necə hiss etdiyini öyrənmək, analiz etmək lazımdır. Bəzən özümüz özümüzlə danışmalıyıq, aynanın qarşısına keçib özümüzə sual verməliyik. “Nə üçün bu davranışı etdin? Bu davranışı edərkən nə düşündün? Mən indi nə hiss edirəm?” və s. kimi suallar verməli, davranışımıza səbəb olan o duyğunu tapmalıyıq. İnsan həmişə ağlı, beyni ilə hərəkət edə, düşünə bilməz. Əks halda bizim elm adamlarının yaratdığı bir robortdan fərqimiz olmazdı. Biz əvvəldə də, qeyd etdiyim kimi, həm də duyğusal bir varlığıq və duğularımız da həyatımıza, qərarlarımıza təsir edir. Bizi duyğularımız idarə edir və onlar həyatımızda əhəmiyyətli bir yerə sahibdir.”

***Səbinə Hüseynli***

# Benzemadan açıqlama: “Müsəlman olduğum üçün buradayam”



Səudiyyə Ərəbistanının ”Əl-İttihad” klubuna keçən Kərim Benzema bu seçimi barədə danışıb. ərəb klubu ilə 3 illik müqavilə imzalayan K.Benzema, bu seçimini müsəlman olması ilə əlaqələndirib. ”Goal” nəşrinin yazdığına görə, 36 yaşlı hücumçu müsəlman ölkəsində yaşamaq istədiyi üçün bu qərarı verdiyini deyib: ”Mən müsəlmanam və həmişə müsəlman ölkəsində yaşamaq istəmişəm. Bura da müsəlman ölkəsidir”.

***Mətləb***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov
küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**

**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4000**